δ'_p - доля растворителя в ЛКМ, выделившегося при нанесении покрытия, (%, масс)

Количество летучей части ЛКМ, выделяющейся при сушке, рассчитывается по формуле:

$$П^{пар}_{с} = \frac{m_k \cdot f_p \cdot \delta''_p}{10^4} \quad (3)$$

где m_k - масса краски, используемой для покрытия, кг;

f_p - доля летучей части растворителя в ЛКМ, %, мас.

δ''_p - доля растворителя в ЛКМ, выделившегося при сушке покрытия, %, мас.

Максимально разовое количество загрязняющих веществ, выбрасываемых в атмосферу, определяется за единицу времени в наиболее напряженное время работы, когда расходуется наибольшее количество окрасочных материалов. Такой расчёт производится для каждого компонента отдельно по формуле:

$$G_{ок(суш)} = \frac{P \cdot 10^6}{n \cdot t \cdot 3600}, \text{ г/с} \quad (4)$$

где P - валовый выброс аэрозоля краски и отдельных компонентов растворителей за месяц, выделившихся при окраске и сушке, кг/мес.;

n – число дней работы участка в этом месяце;

t - число рабочих часов в день в наиболее напряженный месяц, час.

При этом принимается m - масса краски и m - масса растворителя, израсходованного за самый напряженный месяц.

Валовый выброс аэрозоля краски (в зависимости от марки) при окраске производится по формуле (5):

$$П^{а}_{н.ok} = m'_k \cdot \delta_a (100 - f_p) \cdot 10^{-4}, \quad (5)$$

где m'_k - фактический годовой расход ЛКМ, кг;

δ_a - доля краски, потерянной в виде аэрозоля (%, мас.);

f_p - доля летучей части (растворителя) в ЛКМ, (%, мас.).

Валовый выброс индивидуальных летучих компонентов рассчитывается по формуле

$$М^{х}_{общ} = М^{х}_{окр} + М^{х}_{с}, \quad (6)$$

где $М^{х}_{окр}$ - валовый выброс компонента при окраске, т/год;

$М^{х}_{с}$ - валовый выброс компонента при сушке, т/год.

Валовый выброс компонента при окраске рассчитывается по формуле:

$$М^{х}_{окр} = m'_k \cdot f_p \cdot \delta'_p \cdot \delta_x \cdot (1 - j) \cdot 10^{-9} \quad (7)$$

где m'_k - фактический годовой расход ЛКМ, кг;

f_p - доля летучей части (растворителя) в ЛКМ, %, мас.,

δ'_p - доля растворителя в ЛКМ, выделившегося при нанесении покрытия, %, мас.,

δ_x - содержание компонента «х» в летучей части ЛКМ, %, мас.,

j - степень очистки воздуха газоочистным оборудованием (в долях единицы).

Валовый выброс компонента при сушке рассчитывается по формуле:

$$M^x_{окр} = m'_k \cdot f_p \cdot \delta''_p \cdot \delta_x \cdot (1 - j) \cdot 10^{-9} \quad (8)$$

где m'_k - фактический годовой расход ЛКМ, кг;

f_p - доля летучей части (растворителя) в ЛКМ, %, мас.,

δ''_p - доля растворителя в ЛКМ, выделившегося при сушке покрытия, %, мас.,

δ_x - содержание компонента «х» в летучей части ЛКМ, %, мас.,

j - степень очистки воздуха газоочистным оборудованием (в долях единицы).

При расчете выделения конкретного загрязняющего вещества учитывается в виде дополнительного множителя в формулах (1-3) массовая доля данного вещества в составе аэрозоля либо отдельных компонентов растворителей [7,8,9].

Так как в рассматриваемом случае окраска и сушка производится в одном месте, то мощность выбросов загрязняющих веществ при проведении грунтовки, окраски и сушки суммируются и сводятся в табл. 4.

Таблица 4

Исходные данные для проведения расчета выбросов

Название использованного материала	Расход краски, кг	Состав красок и растворителей													
		Ксилол		Уайт-спирит		Толуол		Сольвент		Бутилацетат		Ацетон		Скипидар	
		%	кг	%	кг	%	кг	%	кг	%	кг	%	кг	%	кг
Антипас для подводной части	36450	-	-	30	10935	-	-	-	-	-	-	-	-	-	-
Эмаль для подводной части	25730	-	-	35	6755	15	965	-	-	5	322	15	965	-	-
Эмаль для надстроек	4290	-	-	19	815	-	-	19	815	-	-	-	-	-	-
Эмаль для палубы	4290	3,9	167	28	1201	-	-	-	-	-	-	-	-	-	-
Эмаль для кают	15000	-	-	36	5400	-	-	-	-	-	-	-	-	4	600
Краска	2150	-	-	35	752	-	-	-							
Растворители: Сольвент	3900	-	-	-	-	-	-	-	3900	-	-	-	-	-	-
Уайт-спирит	500	-	-	-	500	-	-	-	-	-	-	-	-	-	-
Ксилол	5450	-	5450	-	-	-	-	-	-	-	-	-	-	-	-
Всего			5617		26358		965		4715		322		965		600

Таблица 5

Расчет выбросов загрязняющих веществ от окрасочных работ в судоремонте

Краска			Растворители			Выделяемые выбросы						Всего
						Краска аэрозольная		Пары растворителя				
								При окраске		При сушке		
Общий расход	Потери	Факт. расход	Название	Расход	Факт. расход	Формула расчета	Кол-во, т/г	Формула расчета	Кол-во, т/г	Формула расчета	Кол-во, т/г	
87910	13187	74723	Ксилол	39542	33611							33,611
			Сольвент Толуол									
			Ацетон	5617	4775	$P_b^a = M_b \cdot \delta_a \cdot 10^{-2}$	2,1292	$P_b^a = M_b \cdot f \cdot \delta_a$	7,5373	$P_b^b = M_b \cdot f \cdot \delta_a$	25,551	4,775
			Скипидар	4715	4008							4,008
			Бутил-ацетат	965	820							0,820
			Уайт-спирит	965	820							0,820
				600	510							0,510
				322	274							0,274
				26358	22404							22,404

Выводы. Таким образом, согласно ГОСТ Р 52362-2005 безопасность лакокрасочного материала - состояние лакокрасочного материала в течение его жизненного цикла, характеризуемое отсутствием недопустимого риска, связанного с причинением вреда жизни или здоровью граждан и окружающей среде. Безопасность лакокрасочного материала обеспечивается оптимальным балансом компонентов лакокрасочного материала, позволяющим понизить до приемлемого уровня риск нанесения ущерба здоровью потребителей и окружающей среде.

Литература

1. Яковлев, А.Д. Лакокрасочные покрытия функционального назначения / А.Д. Яковлев, С.А. Яковлев. -Санкт-Петербург: Химиздат, -2016. -272с.
2. Мюллер, Б. Лакокрасочные материалы и покрытия. Принципы составления рецептур. / Б. Мюллер, У. Пот. -Санкт-Петербург: Химия, -2007. -237 с.
3. ГОСТ 6465-76. Эмали ПФ-115. Технические условия. -Москва: -1977. -14с.
4. ГОСТ 9.401. Единая система защиты от коррозии и старения. Покрытия лакокрасочные. Общие требования и методы ускоренных испытаний на стойкость к воздействию климатических факторов. -Москва: Стандартинформ. -2005. -164с.
5. ГОСТ 12.1.007-76 Система стандартов безопасности труда (ССБТ). Вредные вещества. Классификация и общие требования безопасности. -М.: Стандартинформ, -2007. -14 с.
6. Брок Т. Европейское руководство по лакокрасочным материалам и покрытиям / Т. Брок, М. .Гротеклаус, П. Мишке. –Москва: Пэйнт-Медиа, -2015. -548 с.
7. Методика расчета выделений (выбросов) загрязняющих веществ в атмосферу при нанесении лакокрасочных материалов (по величинам удельных выделений)». -Санкт-Петербург: Интеграл, -1999. -16 с.
8. Сборник методик по расчету выбросов в атмосферу загрязняющих веществ различными производствами. –Ленинград: Гипрометеоиздат, -1986. -142 с.
9. ГОСТ Р 52362- 2005 Безопасность лакокрасочного материала. Термины и определения. – Москва: Стандартинформ, -2005. -12 с.

Məqalə qəbul olunub: 18.05.2020
Tövsiyə ediblər: t.e.d., prof. A.T.Məmmədov; t.e.d., prof. N.Ş.İsmayılov

UOT629.5:656.6

HIDRAVLİKİ SÜKAN MAŞINLARININ ETIBARLILIĞINI VƏ UZUNÖMÜRLÜLÜYÜNÜ ŞƏRTLƏNDİRƏN ƏSAS ELEMENTLƏR

Qafarov A.M., Orucov S.Ş.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: said.orucov.1990@mail.ru

Xülasə. *Bu məqalədə hidravliki sükan maşınlarının etibarlılığını və uzunömürlülüyünü şərtləndirən əsas elementlərə baxılmışdır.*

Abstract. *This article has looked at the key elements that determine the reliability and longevity of hydraulic steering machines.*

Аннотация*. В этой статье рассмотрены ключевые элементы, определяющие надежность и долговечность гидравлических рулевых машин.*

Açar sözlər: *gəmi, sükan maşını, etibarlılıq*

Key words: *ship, stearing gear, reliability*
Ключеые слова: *судно, рулевая машина, надежность*

Giriş. Etibarlılıq elmi-texniki quruluşların fiziki halının dəyişilməsinin qanunauyğunluğunu və onların dayanmadan işləməsinin davamiyyətinə lazım olan vaxtın, vəsaitin daha az sərf olunmasını təmin etmək metodlarını öyrənir. Hazırda gəmi mexanizmlərinin, qurğularının işlənməsi və onların yaradılmasına olan bütün texniki tapşırıqlar etibarlılığa görə kifayət miqdarda tələblərə malikdirlər. Bunlar da gəminin növündən, təyinatından, eləcə də onun istismarının rejim və şəraitindən asılıdır. Gəmi mexanizmlərinin etibarlılığı onların hazırlanması zamanı təmin olunur. Etibarlılıq haqqındakı tələblər gəminin tikilməsinin bütün etaplarında yerinə yetirilməlidir. Layihə olunan zaman mexanizmlərin əvvəlki etaplarında hesablanmış etibarlılığının əsas parametrləri düzgün seçilməlidir. Bu zaman mexanizmlərin detallarının ayrı-ayrı hissələrinin mühafizə metalları, mühitin təsiri, yağlama formaları, təmirə mümkünlüyü və onların xidməti keyfiyyəti nəzərə alınır [1], [2], [3], [4], [5], [6], [7], [8].

Əsas hissə. Etibarlılıq səviyyəsi istismar şəraiti, gəmi mexanizmilərinin texniki xidməti, vaxtaşırı təmirin ümumi həcmi ilə və digər faktorlarda müəyyən edilir. Etibarlılıq haqqındakı elmin riyazi əsasını ehtimal nəzəriyyəsi və riyazi statistika təşkil edir. Bu da gəmi mexanizmlərinin yaradılması və işlənilməsi zamanı meydana çıxan təsadüfü faktorların hesabatının lazım olması ilə əlaqədardır. Belə təsadüfü hallara – faktorlara istehsalatda, şəraitin dəyişilməsi, gəminin istismarı zamanı, dəniz dalğalanması şəraitində gəmi mexanizmlərinə təsadüfü təsirləri göstərmək olar.

Etibarlılıq nəzəriyyəsinin müasir ehtimal metodlarının inkişafı gəmi güc qurğularının və sistemlərinin mürəkkəb funksional sxemlərinin etibarlılığını qiymətləndirmək kimi məsələlərin həlli üçün lazımi şəraitin olması, yəni verilən sınaqların və eləcə də gəmi mexanizmlərinin istismarının statiki qiymətləndirilməsini göstərmək olar. Burada elə fiziki proseslərin öyrənilməsi vacibdir ki, onlar mexanizmlərin əvvəlki halının dəyişilməsinə gətirib çıxarır. Bunlara fiziki-kimyəvi dağılma prosesləri, materialın köhnəlməsi və xassəsinin dəyişilməsi, yəni gəmi mexanizmlərinin dayanmalarının fiziki əsasının əmələ gəlməsi aiddir.

Dayanmanın fizikası dönməyən prosesləri öyrənir, o prosesləri ki, mexanizmlər işləyən zaman meydana gəlir və mexanizmlərdə əvvəlcədən qoyulmuş xassələrinin itirilməsinə gətirib çıxarır. Beləliklə, gəmi mexanizmlərinin etibarlılıq nəzəriyyəsi, problemlərin həlli üçün dayanmanın əmələ gəlməsi momentlərinin təyini üçün ehtimallıq metodlarının tətbiqi lazımdır. Bu metodları köhnəlmə və dağılma proseslərinin qanunauyğunluqlarının təsirini nəzərə alaraq etmək lazımdır.

Doğurdan da istismar müddətində sükan maşını işləyən zaman sıradan çıxması təsadüfü hadisədir, belə ki sükan maşınının bu vəziyyətə gəlib çıxma prosesinin intensivliyi detalların möhkəmlik ehtiyatından, nasosların, elektrik mühərriklərinin yastıqlarının iş qabiliyyətindən, sürtünən detalların yeyilmə intensivliyindən və digər faktorlardan asılıdır. Bütün bunlar fiziki qanunauyğunluğa tabe olaraq və zamandan analitik asılılıqla ifadə edilir və aşağıdakı diaqramda (şəkil) sükan mexanizminin etibarlılığını təşkil edən elementlər göstərilmişdir.

Gəmi sükan mexanizmlərinin etibarlılığını təmin etmək üçün lahiyə zamanı aşağıdakı şərtləri nəzərə almaq lazımdır:

-Texniki tapşırığın razılaşdırılması zamanı etibarlılığın göstəricilərinin nomenklaturalarının seçilməsini və eləcə də dayanma anlayışının göstərilməsini;

-Eskizlərin və texniki layihənin hazırlanması mərhələsində məlumatların dayanmanın əmələ gəlməsi prosesinin qanunauyğunluğunun təyin edilməsini;


-İşçi layihənin hazırlanmasının daha etibarlı üsulunun seçilməsini və etibarlılığın hesablanmasının dəqiqləşdirilməsini.

İstehsalatda və sınaq zamanı etibarlılığın təmin olunmasına aid olan əsas məsələlərə aşağıdakılar aiddir:

-Detalların hazırlanması zamanı istehsalat proseslərinə texniki nəzarət metodlarının işlənməsi;

-Mexanizmlərin sınaq planının hazırlanması və seçilməsi.

Mexanizmin istismar mərhələsində işləməsi vaxtını müəyyən etməklə etibarlılığın faktiki göstəricilərini təyin edirlər. Bununla əlaqədar olaraq texniki xidmətin aparılmasının optimal vaxtının və ehtiyat hissələrinin faktiki səhvini müəyyənləşdirmək olar. Hazırda etibarlılıq nəzəriyyəsi əsasında gəmi sükan maşınqayırmasında müasir dəniz donanmasinin tələbatını ödəyən və etibarlılığın əsas göstəricilərinə malik olan hissələr və qurğular hazırlanır.



Şəkil. *Sükan mexanizminin etibarlılıq elementlərinin diaqramı*

Mexanizmlərin etibarlılığının təmin olunması onun istismar nəticələri haqqında yığılan informasiyalardan çox asılıdır. Ona görə də təzə mexanizm yaradılan zamanı onun istismarı haqqındakı informasiyaların yığılmasına, statiki yolla qaydaya salınmasına və eləcə də etibarlılığın göstəricilərinə diqqət yetirilməlidir.

Sənayedə informasiyaların yığılması sistemləri ГОСТ16468-70, ГОСТ17526-72 dövlət standartlarında hazırlanaraq göstərilib. Bu standartlar bazası əsasında gəmilərdə də informasiyaların yığılmasına nəzarət edilir. Mexanizmlərin informasiyalarının yığılması zamanı aşağıdakı tələblərin qoyulması ortaya çıxır:

-Dayanma baş verən kimi onun haqqında tam dolğun, kifayət həcmdə, dayanma intervalı vaxtını ardıcıllıqla qeyd etməklə sistemə daxil etmək lazımdır.

-Daxil olan informasiya obyektiv olaraq mexanizmin işləmə şəraitini və zədələnmənin, dayanmanın dəqiq səbəbini müəyyən etməlidir.

Yığılan informasiyaların həcmi və dolğunluğu aşağıdakı məsələlərin həllinin mümkün olduğunu müəyyənləşdirir:

1. Dayanmanın və iş pozulmasının səbəbini müəyyən etmək;
2. Etibarlılığı hesablayan göstəriciləri təyin etmək;
3. İstismar şəraitinin etibarlılıq göstəricilərinə təsirini təyin etmək;
4. Ehtiyat hissələrinin sərfi normasını optimalaşdırmaq;
5. Texniki xidmət və planlı təmir sistemlərinin işlənib hazırlanmasını göstərmək.

Birbaşa göndərilən informasiyalar daha effektli olur. ГОСТ16468-70 standartına əsasən etibarlılıq haqqında yığılan informasiya seriyalı istehsalat üçün istismarın əvvəlindən aparılmalıdır. Bunlara əsas etibarı ilə aşağıdakılar aiddirlər:

- Gəmi mexanizmlərində zədələnmələrin və dayanmaların vaxtının qeydiyyat jurnalı hazırlanır;
- Mexanizmlərin texniki xidməti və təmirin qeydiyyatı jurnalı hazırlanır;
- Mexanizmlərin dayanmaları haqqında məlumatlar çatdırılır;
- Mexanizmlərin dayanmaları haqqındakı məlumatlar ГОСТ20307-74 standartına əsasən cədvəl halında hazırlanır.

Mexanizmlərin dayanmaları haqqındakı hesabatı aşağıdakı ardıcıllıqla hazırlanır:

1. Aparılan tədqiqatın məqsədi;
2. Mexanizmlərin istismar yerləri haqqında məlumat;

3. Hər bir mexanizm növünə görə tədqiqatın nəticələri;

4. Hər bir mexanizmin növünün işi haqqında xülasə və son təkliflər.

Mexanizmlərin ilkin istismar informasiyalarının yığımı nəticəsində alınan məlumatları zədələnmələrin və dayanmaların növlərinə görə səbəbləri sistem halına salınaraq analiz edilir. Belə bir proses mexanizmin etibarlılığının keyfiyyətli olduğunun qiymətləndirilməsini göstərir.

Sükan qurğularının etibarlılığının artırılması məsələsində bir sıra amilləri nəzərə almaq lazımdır. Bunlar qurğunun hazırlanmasında, istismarında, onun konstruktiv quruluşunda, hazırlanma materiallarında, texniki xidmətində, təmir prosesində və işlədiyi vaxt göstərilən qulluqda nəzərə alınmalıdır:

- Hazırlayan zavodun göstərdiyi təlimata əsasən texniki nəzarət etmək;
- Hazırlayan zavodun göstərdiyi təlimata əsasən texniki istismar etmək;
- Hazırlayan zavodun göstərdiyi təlimata əsasən texniki təmir etmək.

HATLPA sükan maşınlarında ehtiyat hissələri 5 il saxlamaq mümkündür və saxlanılan hissələrə (şlanqlar və bərkidicilər) aiddir:

- Saxlama temperaturu + 15°C- dən + 50°C qədər, quru, bağlı bölmədə saxlanmalıdır.

-Çirklənməməlidir və birbaşa günəş şüaları düşməməlidir.

Elastik detalları illik saxlama qaydaları aşağıdakı normalarda göstərilib:

1. DİN 7716 «Kauçuk və rezin məmulatlarının saxlanılması, təmizlənməsi və texniki qulluq əsasları».

2. İSO 2230 «Rezin məmulatlarının saxlanılmasının əsasları».

Nəticə. Materialların saxlanma qaydaları aşağıdakı şərtlərlə müəyyən edilir:

- Komplekt şlanqların maksimal saxlanma müddəti 2 il və rezin materiallarının maksimal saxlanılma müddəti 4 il olmalıdır.
- Elastik materialların maksimal saxlanma müddəti 5 il və sonraki texniki baxışı 2 il olmalıdır.
- Saxlama temperaturu 25°C-dən yuxarı olmamalı və saxlama zamanı nisbi rütubət 65%-dən çox olmamalıdır.
- Birbaşa günəş şüaları ilə təması olmamalı və istilikdən qoruyucu ekrandan istifadə olunmalıdır.
- Təmizləyici, kimyəvi, mis və manqan materialları ilə birgə saxlanılmamalıdır.
- Horizontal vəziyyətdə yüksüz saxlanılmalıdır.

Maksimal saxlama müddəti zamanı detalların deformasiyaya davamlılığını, mexaniki zədələnməsini, çatların olmasını, keyfiyyətni və rənglənməsini yoxlamaq lazımdır.

Ədəbiyyat

1. Харин, В.М. Судовые гидравлические рулевые машины/ В.М. Харин. –Одесса: ФЕНИКС, -2005. -280 с.
2. Методическое указание по расчету годового экономического эффекта на предприятиях ММФ. РД31.01.91 – Ленинград: Судостроение, -1993. -257 с.
3. Трунин, С.Ф. Надежность судовых машин и механизмов/ С.Ф. Трунин, Л.А. Промыслов, О.Р. Смирнов. –Ленинград: Судостроение. -1980. -187 с.
4. Валдаев, М.Н. Диагностика технического состояния гидравлических приводов судовых механизмов// -Судостроение, -2003. №1, - с.65.
5. Бронштейн, И.Н. Справочник по математике (для инженеров и учащихся втузов)/ И.Н. Бронштейн, К.А. Семендяев. –Москва: Издательства "Наука", -1965. -608 с.
6. Инструкция завода изготовителя судов проекта 19619. -1986. -113 с.
7. Brocken E.M. Improving the reliability of ship machinery. -2016. -118 p.
8. Marvin Rausand, Arnljot Hoyland. System Reliability Theory. -2004. -636 p.

Məqalə qəbul olunub: 19.05.2020

Tövsiyə ediblər: t.e.d., prof. A.T.Məmmədov; t.e.d., prof. N.Ş.İsmayılov

UOT: 621.762.8

MÜXTƏLİF BORİDLƏRİN İŞTİRAKI İLƏ POLADLARIN ELEKTROQIĞILCIM LEGİRLƏNMƏSİ

Qurbanov F.N.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: f.gurbanov@caspmarine.com

Xülasə. *Məqalədə çətinəriyən metalların boridlərinin polad 35-in səthlərinə elektroqığılcım emal ilə çəkilmə prosesinə baxılır. Bu halda NbB_2+Ti ərintisi ilə möhkəmləndirilmiş katodun səthinin mikrostrukturu, anodun eroziyası və kütlə köçürmə əmsalı tədqiq olunmuşdur. Eyni zamanda, anodun işçi səthinin görünüşü və katodun artımının emal vaxtından asılılığı öyrənilmişdir.*

Аннотация. *В статье рассматривается процесс нанесения боридов тугоплавких металлов на поверхность стали 35. В этом случае исследованы микроструктура поверхности катода, упрочненной сплавом NbB_2+Ti, эрозия анода и массоперенос. Одновременно изучены вид рабочей поверхности анода и зависимость привеса катода от времени обработки.*

Abstract. *The process of applying borides of refractory metals to the surface of steel 35 is considered in this paper. In this case, the microstructure of the cathode surface hardened by the NbB_2 + Ti alloy, anode erosion and mass transfer is investigated. At the same time, the shape of the anode working surface and the dependence of the cathode weight on the processing time.*

Açar sözlər*: çətinəriyən metallar, boridlər, keçid metalları, elektroqığılcım emal, möhkəmləndirmə, eroziya.*

Ключевые слова: *тугоплавкие металлы, бориды, переходные металлы, электроискровая обработка, упрочнение, эрозия*

Key words: *refractory metals, borides, transition metals, electric spark treatment, hardening, erosion*

Giriş. Çətinəriyən metalların boridləri polad səthlərin elektroqığılcım möhkəmləndirilməsi üçün elektrod materialları kimi tədqiq olunur [1-3]. Belə münasibətdə əsas marağı V və VI qrup keçid metalları ilə IV qrup keçid metallarının ərintiləri doğurur, bunlar artırılmış plastikliyə, möhkəmliyə və termiki dözümlülüyə malikdirlər [4]. Alnmış eksperimental məlumatlar ona dəlalət edir ki, Ti-Nb-B sistemi ərintilərinin abraziv yeyilmə şəraitlərində yeyilməyə dözümlüyü 8-10 dəfə ШХ15 poladının yeyilməyə dözümlüyündən yuxarıdır və səthlərin intensiv yeyilmədən mühafizə üçün istifadəsi çox perspektivlidir.

Əsas hissə. Məqalə Ti-Nb-B sistemi ərintilərin eroziyaya dözümlülüyünün dəyişmə xarakterinin sistematik tədqiqinə və habelə polad katodun möhkəmlənmiş qatının formalaşmasına həsr edilmişdir. Ti-Nb-B sistemi ərintilərini NbB_2+Ti ərintilərinin qarışıqlarının qızmar preslənməsi metodu ilə və sonrakı homegenləşdirici tabalma ilə hazırladıq. Rentgen və metalloqrafik analiz göstərdi ki, tərkibində 0-60 kütlə% titan olan ərintilər ikifazalıdır. Aşağı Ti konsentrasiyalı ərintilər Nb B_2–də Ti-nın məhlulunu və (Ti Nb) B-nun və ya Nb B_2 ünsürlərini əks etdirirlə. Titanın miqdarını artırdıqca (Ti,Nb) B fazasının miqdarı artır, bu faza monoborid titanda niobiumun bərk məhlulunu özündə əks etdirir, eyni zamanda niobium diobridi əsasında (Nb, Ti) B_2 fazanın miqdarı azalır. NbB_2 - 60kütlə%Ti ərintisinin əsas fazası (Ti,Nb) B-dur. Mikrodyumetrik analizin məlumatlarına əsasən bu faza ən böyük mikrobərkliyə 30000±2200MPa malikdir.

Polad 35 altlığın elektroqığılcım möhkəmləndirilməsini ЭФИ-46A qurğusunda I rejimdə (J_{qq}=3,5-4,5A, U_{bg}=15-20V, E=0,06C) apardıq. Elektro-qığılcım legirləmə prosesində anodun


materialının kütlə yeyilməsinin L_a, katodun materialının artımını Δ_k emal vaxtından və köçürmə əmsalından $K=(\Delta_k/\Delta_a)\cdot 100\%$ asılı olaraq ölçdük.

EQL prosesinin effektivliyini möhkələndirilmiş qatın xassələri - onun qalınlığı, bütövlüyü, kələkötürlüyü, əsasla rabitənin möhkəmliyi, bərkliyi ilə təmin edilir. Ti-Nb-B sistemi ərintiləri ilə poladın legirləmə prosesinin tədqiqi göstərdi ki, xüsusi davamiyyəti 7 dəq/san^2 –dək legirləmədə möhkəmləndirilmiş qatın qalınlığı ərintinin tərkibindən asılıdır və tərkibində 18 kütlə%-dək Ti olan ərintilər üçün 6-9mkm və tərkibində 30-50kütlə% Ti olan ərintilər üçün isə 8-12 mkm təşkil edir. Lakin qatın keyfiyyəti çox əhəmiyyətli dərəcədə anodun materialının tərkibindən asılıdır. Məsələn, legirləyici elektrod kimi təmiz niobium boridi və ya az miqdarlı Ti ərintiləri istifadə etdikdə qatın bütövlüyü 22% -i ötmür, onda çoxlu çatlar var, kələkötürlük yüksəkdir. Bir sıra hallarda çatlar, qatlar və altlıq arasında müşahidə olunur, bu onlar arasında aşağı ilişmə möhkəmliyinə dəlalət edir və aydındır ki, anod materialı kimi Nb B_2-ni və az miqdarlı Ti (0÷22 kütlə%) Ti – Nb-B sisteminin istifadəliyinin perspektiv olmasını göstərir. Eyni zamanda bu məqsədlər üçün 40+60 kütlə% Ti-nin miqdarı ilə ərintilərin istifadəsi möhkəmləndirilmiş qatın daha yüksək keyfiyyətini təmin edir: Bütövlük – 55%-dən az olmadan, çatlar və qopmalar praktiki olaraq yoxdur, kələkötürlük 2,4-ə uyğun gəlir. Ən keyfiyyətli qat poladı Nb B_2 +60 kütlə % Ti ərintisi ilə legirlədikdə alınır (şəkil 1).



Şəkil 1. *Nb B_2 +60 kütlə% Ti ərintisi ilə möhkəmləndirmədən sonra katodun səthinin mikrostrukturu (x 600)*

EQL prosesinin məhsuldarlığı anodun materialının eroziyaya davamlılığı, qığılcım araboşluğu vasitəsilə keçiddə arzuolunan istiqamətdə onun xassələrini dəyişmək və ya dəyişməmək qabiliyyəti, eroziya məhsullarının isə altlıqda bərkiməsi ilə təyin olunur. Ərintilərdə Ti miqdarından asılı olaraq onların eroziyasını və kütlə köçürməsini K təyin etdik (şəkil 2). Ərintilərdə Ti miqdarı artdıqca anodun eroziyası monoton azalır, kütlə köçürmə əmsalı isə artır.



Şəkil 2. *Ti-nın konsentrasiyasından asılı olaraq tədqiq olunan ərintilərin eroziyası (1) və kütlə köçürmə əmsalı (2)*

Məlumdur ki, kifayət qədər yüksək plastikliyə malik olan metallarla və materiallara elektroqığılcım boşalmanın təsirində madənin kənarlaşdırılması əasasən maye və buxar fazalarda baş verir. Bununla əlaqədər olaraq [5,6] müəllifləri hesab edir ki, belə materialların eroziyası Δ_e aşağıdakı ifadə ilə təyin olunur:

$$\Delta_e=\Delta_{eb}+\Delta_{em}\ , \qquad (1)$$


burada Δ_{eb}, Δ_{em} -uyğun olaraq buxar və maye fazalarda anodun materialının eroziyasıdır

Lakin yüksəkkövrək materiallar üçün, hansılaraki çətinəriyən birləşmələr və onlar əsasında ərintilər aiddir, elektrodun səth qatının kövrək dağılması Δ_{ek} hesabına eroziya əhəmiyyətli, əksər hallarda materialın ümumi eroziyasına təyinedici töhfə verir [7].

$$\Delta_e=\Delta_{eb}+\Delta_{em+}\Delta_{ek} \qquad (2)$$

Elektrod - anodun işçi səthlərinin metalloqrafik analizi göstərdi ki, diborid niobiumla və ya titanın az miqdarı olan ərintilərlə möhkəmləndirmədə anodun 0,8mm-dək cırılmalar və qopmaların aşkarlanması ilə müşayət olunan əhəmiyyətli kövrək dağılması müşahidə olunur (şəkil 3,a). Ti-nin böyük miqdarlı ərintilərinin emalında qopmalar əhəmiyyətli dərəcədə az rast gəlinir, onların ölçüləri on dəfə azdır (şəkil 3.,b) və səthdə ərimiş sahələr aşkarlanır.

Ti-Nb-B sisteminin materiallarının [8] metodikası üzrə ərintilərin deformativ xassələrini öyrənmək məqsədilə aparılmış sklrometrik tədqiqatlar göstərdi ki, NbB_2+60küt%Ti ərintisini və təmiz NbB_2-nin mikrokövrəklik göstəricisi uyğun olaraq 0,8 və 5,0-dir. Bu və şəkil 2-nin məlumatları ona dəlalət edir ki, elektroqığılcım boşalmasının təsiri şəraitlərində eroziya məhz kövrəklik NbB_2 və onun titanın 18 küt %-dək miqdarı olan ərintilərində eroziyaya aşağı dözümlüyü şərtləndirir.



a *b*

Şəkil 3. *Anodun işçi səthin görünüşü (x200) a-NbB_2; b- NbB_2+60küt%Ti*

Titanın müxtəlif miqdarı ilə olan Ti-NB-B sistemi ərintilərin dağılma mexanizminin spesifikası yeyilmə məhsullarının məhz növünü təyin edir. Müəyyən olunmuşdur ki, tərkibində 40-60 kütlə%Ti olan ərintilərlə polad 35 katodun möhkəmləndirilməsində eroziyanın məhsullarının əksər zərrəcikləri kürəyə bənzərə (10-18mkm diametrli) yaxın formaya malikdir. Həm də ərimiş zərrəciklərə rast gəlinir, onların görünüşü ona dəlalət edir ki, onlar bərk halda anodun səthindən eroziya etmişlər və qığılcım araboşluğu vasitəsilə keçiddə ərimişlər.

O haldakı əgər elektrod - anod kimi NbB_2 və Ti-nin kiçik miqdarı ilə Ti-Nb-B sistemi ərintiləri istifadə olunmuşdur, eroziya məhsulları içərisində kürəyəbənzər zərrəciklərlə yanaşı ölçüləri 0,4-1,1mm olan qırma formalı zərrəciklərədə rast gəlinir.


Beləliklə, titanın müxtəlif miqdarı ilə ərintilərin müxtəlif dağılma mexanizmi onlarda elektrik boşalmasının təsirində müxtəlif növ eroziya məhsullarının yaranmasını çağırmışdır. Tərkibində 40-60küt% Ti olan ərintilər belə dağılırlar ki, eroziya məhsulları - maye və ya əriyənədək qızdırılmış-asanlıqla altlıqda bərkiyirlər. Bunula da nisbətən yüksək kütlə köçürmə əmsalı və möhkəmləndirilmiş qatın yaxşı keyfiyyəti izah olunur. Onlardan fərqli olaraq tərkibində 30 küt %-dək Ti olan ərintilər elektriqığılcım boşalmanın təsirində qırma formalı iri zərrəciklərin yaranması ilə dağılırlar, bu zərrəciklərin altlıqda bərkiməsi çətindir. Nəticədə belə ərintilərlə legirləmədə köçürmə əmsalı əhəmiyyətli dərəcədə aşağıdır, möhkəmləndirilmiş qatın bütövlüyü və kələkötürlüyü isə azdır.

Ti-nın müxtəlif miqdarı ilə materialların dağılma mexanizmində və eroziya məhsullarının növündə müxtəliflik möhkəmləndirilmiş qatın formalaşmasının spesifikasını da şərtləndirilir. EQL-nin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, elektrod materialının və altlığın tipindən asılı olmayaraq müəyyən bir momentdən başlayaraq möhkəmləndirilmiş qatın qalınlığı böyümür, hətta tam itənədək azalır. Sonuncu, anodun və katodun materillarınım mexaniki möhkəmliyini üstələyən gərginliklərin möhkəmləndirilmiş qatda yaranması ilə əlaqədardır. Eyni vaxtda elektrod materiallarının altlığa köçürülməsi və qatın dağılması ilə əlaqədər olaraq müəyyən bir momentdən sonra möhkəmləndirmə prosesi nəinki kəmiyyət üzrə, hətta işarə üzrə katodun artımının dövri dəyişməsilə səciyyələnir (şəkil 4).

Periodun o momentinədək davamiyyəti, o haldakı ilk dəfə mənfi artım T_x müşahidə olunur, materialın qatının gərginliyi relaksasiya etmək qabiliyyətindən, yəni onun plastikliyindən asılıdır. Katodun kütləsinin dəyişmə kinetikasının tədqiqi nəticəsində göstərilmişdir ki, legirləyici elektrod kimi təmiz NbB_2 istifadə etdikdə T_x=*6-8 dəq*-dir, ərinti də titanın miqdarını artırdıqca o artır və NbB_2+60kütlə%Ti ərintisi ilə möhkəmləndirmədə 12 dəq təşkil edir.

Beləliklə, Ti-Nb-B sistemi ərintiləri ilə polad altlığı möhkəmləndirdikdə, onda 12-15 mkm qalınlıqlı, bütövlüyü 60% və bərkliyi 27000 MPa qat alına bilər. Tərkibində 40-60 kütlə % Ti olan ərintilərlə möhkəmləndirilmiş poladın abraziv yeyilmə şəraitlərində yeyilməyə dözümlüyü möhkəmləndirilmiş polad 35-in yeyilməyə dözümlüyünü üç - dörd dəfə üstələyir. Bu ərintilər

perspektiv elektrod materialları hesab oluna və gəmi mexanizmlərinin detallarının mühafizəsi üçün istifadə oluna bilərlər.



Şəkil 4. *Aşağıdakı ərintilər üçün katodun artımının Δ_k emal vaxtından τ asılılığı*
1-NbB_2;2- NbB_2+10küt%Ti;3- NbB_2+60küt%Ti

Nəticə. Ti-Nb-B sistemi ərintilərilə EQL ilə polad 35 altlığın səth qatlarının möhkəmləndirmə prosesi tədqiq olunmuşdur. Müəyyən edilmişdir ki, ərintinin tərkibində 40-60 küt. %Ti olduqda poladın səthində möhkəmləndirilmiş qatın yeyilmə dözümlüyü adi polad 35-in yeyilməyə dözümlüyündən üç-dörd dəfə yüksək olur. Tədqiqat nəticəsində tərkibi keçid metallarının boridlərindən ibarət olan ərintilərdən istifadə etməklə EQL prosesinin maşın və mexanizmlərinin yeyilməyə dözümlüyünün artırılmasında perspektiv proses olması təsdiqlənmişdir.

Ədəbiyyat

1. Ковальченко, С.М. и др. Электроискровое легирование стали сплавами на на основе борида вольфрама//Электронная обработка металлов. -1997, №1/2, -с.19-22.
2. Ковальченко, М.С. Исследование свойств горячелегированного сплава на основе борида вольфрама/ М.С. Ковальченко, Р.А. Альфинцева. В кн.: Горячее пресование. -Киев: -1997. -с. 120-128.
3. Сафронов, И.И. Исследование возможности применения карбидных и боридных соединений титана, ниобия, циркония, хрома в качестве электродов для электроискрового легирования:/ автореф. дисс. канд. техн. наук/- Киев, -1987. -30с.
4. Самсонов, Г.В. Бор, его соединения и сплавы/ Г.В. Самсонов, Л.Я. Марковский, А.Ф. Жигач, М.Г. Валюшко. –Киев: Изд-во АНУССР, -1990. -560с.
5. Афанасьев, Н.Д., Капыльян, С.Н., Филипов, Л.П. Некоторые особенности электрического разрушения электродов при разрядах в газовых и жидких средах// Электронная обработка материалов. -2000. №1, -с.3-8.
6. Волченкова, Р.А. Связь между теплосодержанием и физико-механическими и эрозионными характеристиками металлов// -2003. №4, -с.58-62.

Məqalə qəbul olunub: 13.04.2020
Tövsiyə ediblər: t.e.d., prof. A.T.Məmmədov; t.e.d., prof. N.Ş.İsmayılov

УДК 621.789

ИССЛЕДОВАНИЕ ВЛИЯНИЯ РЕЖИМОВ ЭЛЕКТРОМЕХАНИЧЕСКОЙ ОБРАБОТКИ НА ШЕРОХОВАТОСТЬ ПОВЕРХНОСТНОСТИ

Малышко С.Б., Тарасов В.В.

Морской государственный университет им. адм. Г. И. Невельского
Российская Федерация, г. Владивосток, ул. Верхнепортовая, 50а
E-mail: malyshko_svetlan@mail.ru, tarasov@msun.ru

Аннотация. *Описаны закономерности влияния технологических параметров электромеханической обработки на шероховатость поверхности деталей. Сделаны выводы об оптимальных значениях этих параметров.*

Abstract. *The regularities of the influence of the technological parameters of the electromechanical treatment on the surface roughness of parts are described. Conclusions about the optimal values of these parameters are drawn.*

Xülasə. *Elektromexaniki emalın texnoloji parametrlərinin detalların səthinin kələ-kötürlüyünə təsir qanunauyğunluqları təsvir edilmişdir. Bu parametrlərin optimal ölçüləri haqqında nəticələr verilmişdir.*

Ключевые слова: *электромеханическая обработка, шероховатость поверхности, технологические параметры*

Key words: *electromechanical treatment, surface roughness, technological parameters*

Açar sözlər: *elektromexaniki emal, səthin kələ-kötürlüyü, texnoloji parametrlər*

Введение. Работоспособность деталей судового энергетического оборудования в значительной степени связана с геометрическими характеристиками микронеровностей, которые оказывают большое влияние на эксплуатационные свойства сопряженных деталей: износостойкость, усталостную прочность и другие.

Основная часть. При электромеханической обработке (ЭМО) шероховатость поверхностей зависит от многих параметров режима: значений силы и рода тока, подачи, давления, скорости обработки, числа проходов, а также исходной шероховатости деталей и геометрии применяемого инструмента [1].

Режимы ЭМО, которые выбирают в соответствии со служебным назначением деталей, подразделяют на упрочняющий и чистовой.

При поверхностной плотности тока от 700 до 1500 А/мм^2 в точке контакта инструмента с деталью и скорости обработки от 0,5 до 5 м/мин реализуется жесткий упрочняющий режим, для которого характерна значительная глубина закаленного слоя. Однако значения параметров шероховатости могут завышать требуемые для упрочняемых деталей, поэтому необходима дополнительная механическая обработка.

Среднему упрочняющему режиму соответствует поверхностная плотность тока менее 800 А/мм^2. Скорость обработки может быть равна или быть выше используемых при жестком режиме. После ЭМО шероховатость поверхности уменьшается, а глубина закаленного слоя достигает 0,2 мм.

Чистовой режим проводится с незначительной поверхностной плотностью тока в зоне контакта инструмента и изделия.

В работе [2] был использован средний упрочняющий режим ЭМО образцов из стали 45 с целью создания закаленного поверхностного слоя на глубину до 0,2 мм и уменьшения исходной шероховатости. Перед электромеханическим обкатыванием, которое производилось роликом из твердого сплава, образцы подвергались предварительной токарной обработке.

Поверхности, обрабатываемые металлорежущими инструментами, имеют шероховатость продольную – в направлении главного движения резания и поперечную – в направлении движения подачи. Для большинства способов характерно то, что поперечная шероховатость всегда больше продольной. При ЭМО так же, как при обработке резанием, поперечная шероховатость превышает продольную. Поэтому поперечная шероховатость была использована в качестве основного критерия микрогеометрии поверхности, полученной после электромеханического обкатывания.

Отдельные технологические параметры ЭМО изменялись в следующих пределах: сила тока от 0 до 750 А, усилие прижатия ролика от 245 до 980 Н, скорость обкатывания от 3,5 до 60 м/мин, подача от 0,13 до 0,46 мм/об и число проходов от 1 до 4. Оценка шероховатости поверхности осуществлялась по ГОСТ 2789–73 измерением среднего арифметического отклонения профиля Ra.

На рисунке 1 показаны зависимости шероховатости поверхности от силы тока при усилиях прижатия ролика 294 и 735 Н, полученных при одном проходе. Скорость обработки при этом составляла 28,1 м/мин, продольная подача 0,2 об/мин.




Рис. 1. *Зависимость шероховатости поверхности от силы тока*

Из рисунка видно, что каждому усилию прижатия ролика соответствует оптимальное значение силы тока, при котором шероховатость поверхности получается минимальной. Причем, увеличения усилия прижатия ролика приводит к некоторому смещению оптимальной величины тока в сторону ее увеличения. В то же время необходимо отметить, что при выбранных усилиях прижатия ролика в интервале силы тока от 380 до 630 А получена практически одинаковая шероховатость поверхности. При этих значениях силы тока шероховатость поверхности уменьшилась по сравнению с исходной в 1,5 раза.

На рисунке 2 показано влияние усилия прижатия ролика на шероховатость поверхности. Электромеханическое обкатывание проводилось за один проход по следующему режиму: сила тока 500 А, скорость обработки 28,1 м/мин, подача 0,2 мм/об.

Наблюдается увеличение шероховатости поверхности при увеличении усилия прижатия ролика. Это можно объяснить увеличением площади контакта, приводящее к уменьшению тепла, выделяемого проходящим током, что приводит к неэффективному сглаживанию неровностей при электромеханической обработке.




Рис. 2. *Влияние усилия прижатия ролика на шероховатости поверхности*

Влияние числа проходов на шероховатость поверхности показано на рисунке 3.

Основное уменьшение шероховатости поверхности происходит за первый проход. Второй проход также способствует уменьшению микронеровностей обрабатываемой поверхности. Третий проход шероховатость поверхности практически не уменьшает. Четвертый проход резко увеличивает параметры шероховатости.




Рис. 3. *Влияние числа проходов на шероховатости поверхности*

Влияние скорости обработки на шероховатость поверхности исследовали при электромеханической обработке по режиму: сила тока 500 А, усилие прижатия ролика 294 Н, подача 0,2 мм/об, число проходов – 1. Применяли два вида предварительной механической обработки: точение и шлифование. После точения параметр Ra составлял 4,1 мкм, а после шлифования – 0,67 мкм. При низких скоростях обкатывания (менее 10 м/мин) значительно снизилась шероховатость поверхности. На образцах с предварительной токарной обработкой среднее арифметическое отклонение профиля Ra уменьшилось примерно в 10 раз, а на образцах с предварительной обработкой шлифованием – в 3 раза. Такие результаты объясняются повышенным временем электронагрева. Дальнейшее увеличение скорости обработки до 60 м/мин привело к незначительному повышению шероховатости поверхности.

Кроме того установлено, что увеличение продольной подачи при ЭМО от 0,13 до 0,46 мм/об ухудшает качество поверхностного слоя.

В работе [3] изучали влияние основных технологических параметров плотности тока и давления ролика при электромеханической обработке образцов из стали 45 и 40ХН на шероховатость поверхности. Кроме того определяли глубину упрочненного слоя. Плотность тока изменялась в пределах от 500 до 1125 А/мм^2 давление на ролик от 6 до 38 Н/мм^2 . Скорость обработки составляла 3 м/мин.

В рассматриваемой работе использовались два режима упрочнения ЭМО: жесткий и средний. Оптимальные параметры шероховатости (Ra= 0,6 – 1,2 мкм) получены при плотности тока 875 А/мм^2, давлении 18 Н/мм^2 и скорости обработки 3 м/мин, что соответствует жесткому режиму упрочнения. Глубина упрочнения h = 1,3-1,6 мм.

В работе [2] минимальные параметры шероховатости (Ra= 0,55 – 0,65 мкм) наблюдались при силе тока 380 – 630 А, усилии прижатия ролика 294 – 735 Н и скорости обработки 28,1 м/мин, что соответствует среднему режиму упрочнения. Глубина упрочнения около 0,2 мм.

Учитывая то, что параметры режима в этих работах разные: плотность тока [3] и сила тока [2], давление ролика [3] и усилие прижатия ролика [2], а также используются разные режимы упрочнения (жесткий [3] и средний [2]) результаты исследований сложно сравнивать.

Выводы. Таким образом, можно сделать вывод, что ЭМО позволяет одновременно уменьшить шероховатость поверхности и создать закаленный слой, что обеспечивает долговечность работы деталей. При назначении технологических параметров ЭМО необходимо учитывать полученные в результате представленных исследований закономерности, с учетом условий эксплуатационных требований работы детали по степени и глубине упрочнения, а также шероховатости поверхности.

Литература

1. Горленко, А. О. Электромеханические методы обработки [Текст] / А. О. Горленко // Машиностроение: энциклопедия. В 40 т. / отв. ред. К. Ф. Фролов. – М.: Машиностроение, -2000. – Т. 3 кн. 3. Технология изготовления деталей машин. / Под общ. ред. А. Г. Суслова. -с. 366–361.
2. Тарасов, В. В. Теория и практика упрочнения судовых деталей ЭМО [Текст] / В. В. Тарасов. – Владивосток: Дальнаука, -1994. -70 с.
3. Суслов, А. Г. Электромеханическая обработка деталей машин [Текст] / А. Г. Суслов, А. Г. Горленко, С. О. Сухарев // Справочник. Инженерный журнал. -1998. № 1. -с. 15–18.

Məqalə qəbul olunub: 20.04.2020
Tövsiyə ediblər: t.e.d., prof. A.T.Məmmədov; t.e.d., prof. N.Ş. İsmayılov

UOT 621.7

RPİ DƏZGAHLARINDA DETALLARIN HAZIRLANMASI ZAMANI TƏLƏB OLUNAN DƏQİQLİYİN TƏMİN EDİLMƏSİ MƏRHƏLƏLƏRİ

Yusubov N.D., Xankişiyev İ.A., Cabbarov R.C., Şəmilzadə E.V.

Azərbaycan Dövlət Dəniz Akademiyası
AZ1000, Bakı şəh., Z.Əliyeva küç., 18
E-mail: Nizami_Yusubov@mail.ru

Xülasə. *Məqalədə RPİ dəzgahlarında mürəkkəb profilli maşın hissələrinin kontur emalının həm idarəetmə proqramının işlənmə mərhələsində, həm də əməliyyatın yerinə yetirlməsi zamanı formaəmələgətirmə prosesinin və kəsmə rejimlərininin idarəedilməsi yolu ilə səmərəliliyini artırmaq məqsədilə tələb olunan dəqiqliyin təmin edilməsi mərhələləri araşdırılmışdır. Bu zaman RPİ dəzgahlarında emalın sapmalarının meydana gəlməsi və məhsuldarlığının aşağı düşməsinə səbəb olan amillərin müəyyən edilməsi, səthlərin yerləşdirmə, texnoloji sistemin statik və dinamik sazlanması mərhələlərində baş verən sapmalarının yaranma mexanikasının öyrənilməsinə xüsusi diqqət yetirilmişdir. Nəticədə, proqram-texnoloji həlləri müəyyənləşdirmək və həm idarəetmə proqramlarının işlənməsi mərhələsində, həm də adaptiv idarəetmə sistemləri də daxil olmaqla korreksiyaedici sistemlər tətbiq etməklə mürəkkəb həndəsəli gəmi detallarının konturlarının emalının dəqiqliyinə və məhsuldarlığına nail olunması prosesini idarə etməyə imkan verən tövsiyələrin işlənməsi üçün nəzəri baza yaradılmışdır.*

Abstract. *The article discusses the stages of achieving the required accuracy in order to improve the efficiency of contouring of complex shaped machine parts on CNC machines by controlling the shaping process and cutting modes, both at the stage of developing the control program and during the operation. At the same time, special attention was paid to identifying the factors that determine the causes of the formation of deviations and the loss of processing productivity, the study of the mechanics of the formation of surface deviations arising at the installation stages, static and dynamic adjustment of the technological system on CNC machines. As a result, a theoretical basis was created for defining software and technological solutions and developing recommendations for managing the process of achieving accuracy and productivity of complex geometric parts of vessel, both at the stage of developing control programs and in the cutting process by applying corrective correction systems, including adaptive control systems.*

Аннотация. *В статье рассматриваются этапы достижения требуемой точности с целью повышения эффективности контурной обработки сложных профильных деталей машин на станках с ЧПУ путем управления процессом формообразования и режимами резания, как на этапе разработки управляющей программы, так и в процессе выполнения операции. При этом особое внимание было уделено выявлению факторов, определяющих причины формирования отклонений и потери производительности обработки, изучению механики формирования отклонений поверхностей, возникающих на этапах установки, статической и динамической настройки технологической системы на станках с ЧПУ. В результате была создана теоретическая основа для определения программно-технологических решений и разработки рекомендаций, создающих возможность управления процессом достижения точности и производительности обработки сложных геометрических контуров деталей судна, как на этапе разработки управляющих программ, так и с применением корректирующих систем, включая адаптивные системы управления.*

Açar sözlər: *çoxməqsədli RPİ dəzgahları, emal dəqiqliyi, yerləşdirmə xətası, statik sazlama, dinamik sazlama, ümumi emal xətası*

Key words: *multi-purpose CNC machines, machining accuracy, placement error, static adjustment, dynamic adjustment, total machining error*

Ключевые слова: *многоцелевые станки с ЧПУ, точность обработки, погрешность установки, статическая настройка, динамическая настройка, суммарная погрешность обработки*

Giriş. Məmulların keyfiyyətini yaxşılaşdırmaq və metal həcmini azaltmaq meyli ilə müasir texnologiyaların inkişafı bahalı RPİ çoxməqsədli dəzgahlarında və RPİ dəzgahlarında hazırlanan mürəkkəb həndəsi formalı maşın hissələri tərkibini və sayını genişləndirir. Buna görə də, belə avadanlıqların istifadəsinin səmərəliliyini artırmaq problemi aktualdır [1-16]. Mürəkkəb həndəsəli çox elementli hissələrin - aerokosmik texnologiyanın yanacaq və hidravlik sistemlərinin gövdələri, ştamp və press-formaların örtükləri, şablonlar, yumruqlar, turbin kürəklərinin və başqalarının RPİ dəzgahlarında istehsalı mürəkkəb texnoloji məsələni təşkil edir. Pəstahın giriş parametrləri (emal payı, bərklik, sərtlik) və alət (yeyilmə, kütləşmə) giriş parametrləri həm hissədən hissəyə, həm də eyni hissə daxilində dəyişir [8-16]. Bu parametrlər əksər hallarda təsadüfi olur, bu zaman proqramlaşdırılma zamanı yalnız bu amillərin sistematik komponentlərinin nəzərə alınması heç də asan deyiuldir. Bütün bu məsələlər mürəkkəb həndəsəyə malik hissələri aşağı sərtliyi olan barmaq (uc) frezləri ilə emal edərkən və ya sərt olmayan pəstahları emal edərkən daha da ağırlaşır.

Kontur emalı zamanı trayektoriyanın və kəsmə rejimlərinin proqramlaşdırılması qonşu bitişik səthlərin birləşmə bucaqlarının, dərinliklərin dəyişikliklərinin, frezləmə enininin və emal olunan səth ilə frezin kontakt bucağının nəzərə alınmasının mürəkkəb olduğuna görə çətindir. Bir neçə təmiz gedişləri yerinə yetirən zaman elastik deformasiyaların təsirini azaltmaqla tələb olunan emal dəqiqliyinə nail olmaq dəzgahın məhsuldarlığını əhəmiyyətli dərəcədə azaldır. Əgər universal dəzgahda işçi emal payının, frezləmə eninin, alətin kütləşmə dərəcəsi və pəstah ilə onun kontakt bucağının nəzərə ala bilirsə, RPİ dəzgahında operatorun belə bir imkana yoxdur.

Konturun qonşu bitişik səthlərin birləşmə bucaqlarının çatdırma emalı lazım olduqda məhsuldarlıqda əhəmiyyətli bir itki baş verir. Bəzi hallarda bu işləri RPİ dəzgahlarında deyil, adi universal frez dəzgahlarında yerinə yetrimək lazım gəlir. Beləliklə, RPİ dəzgahlarında istehsal olunan mürəkkəb profilli hissələrin formalaşması prosesi üçün effektiv proqram və texnoloji təminatın yaradılması məsələsi aktualdır və həm elmi, həm də praktik əhəmiyyətə malikdir.

Məsələnin qoyuluşu. Aparılan işin məqsədi RPİ dəzgahlarında mürəkkəb profilli maşın hissələrinin kontur emalının həm idarəetmə proqramının işlənmə mərhələsində, həm də əməliyyatın yerinə yetirlməsi zamanı formaəmələgətirmə prosesinin və kəsmə rejimlərininin idarəedilməsi yolu ilə səmərəliliyini artırmaqdır.

Verilmiş dəqiqliyə nail olmaq üçün detal texnoloji sistemin – dəzgah, tərtibat, alət, pəstahın kinematik və ölçü zəncirlərinə daxil edilir. Detalda əldə olunan ölçülər - xətti və bucaq (səthlərin nisbi dönmələri) ölçüləri dəzgahın müvafiq texnoloji ölçü zəncirlərinin qapayıcı bəndləridir [1,2].

Dəzgahlarda xətti ölçülərin tələb olunan dəqiqliyi, bir qayda olaraq, tənzimləmə üsulu ilə əldə edilir. Bu məqsədlə dəzgahların konstruksiyalarında kompensator - bəndlər, məsələn stolların, karetkaların və ya konsolların hərəkəti üçün vintlər, tərtibatların konstruksiyalarında isə tənzimlənən dayaqlar nəzərdə tutulur.

Beləliklə, emal olunan hissələrin xətti ölçülərinin verilmiş dəqiqiliyini dəzgahlarda ölçmə sistemlərinin – xətkeşlərin, limblərin, indikatorların və s. köməyi ilə təmin etmək nisbətən asandır. Bucaq ölçülərinin dəqiqliyni təmin etmək üçün isə fərqli sxemdən istifadə olunur. Nisbi dönmələrin dəqiqliyinin əldə edilməsini dəzqah qovşaqlarının həndəsi dəqiqliyi – onun yönəldicilərinin dəqiqlyi müəyyənləşdirir. Bu vəziyyətdə tənzimləmələr etmək imkanı praktik olaraq yoxdur. Bu hal, ilk növbədə, bucaq ölçülərinin dəqiqliyni əldə etmək üçün texnoloji bazaları müəyyənləşdirməyi və sonra xətti ölçülərin dəqiqliyini əldə etmək üçün bazaları seçməyi zəruri edir.

Dəzgahlarda hazırlanan detalların dəqiqliyinin əldə edilməsi üç mərhələnin yerinə yetirilməsini tələb edir:

- pəstahın və tərtibatın yerləşdirilməsi mərhələsini;
- sistemin statik sazlanması mərhələsini;
- texnoloji sistemin dinamik sazlanması mərhələsini.

Birinci mərhələnin yerinə yetirilməsi zamanı detal (pəstah) dəzgahın kinematik və ölçülü zəncirlərinə daxil edilir və bərkidilir. Bu zaman $\boldsymbol{A_y}$ yerləşdirmə ölçüsü $\boldsymbol{\omega_y}$ xətasına malik olur.

İkinci mərhələnin yerinə yetirilməsi zamanı dəzgahın icra orqanları funksional yüklənmə olmadan, alətin kəsici tilləri hissənin bazalarına nisbətən və ya dəzgahın işçi səthlərinə nisbətən statik sazlamanın tələb olunan $\boldsymbol{A_s}$ ölçüsünün aldığı vəziyyətdə müəyyən edilir. Bu mərhələdə meydana gələn sapmalar $\boldsymbol{\omega_s}$ statik sazlama xətasını doğurur.

Üçüncü mərhələdə dinamik sazlama - yəni kəsmə qüvvəsinin, elastik və istilik deformasiyalarının, həmçinin vibrasiya və alətin yeyilməsi ilə kəsmə prosesi baş verir. Bu zaman pəstahın və alətin göstərilən mövqedən kənarlaşması (sürüşməsi, yerdəyişməsi) həyata keçir, burada $\boldsymbol{A_d}$ dinamik sazlama ölçüsü formalaşır. $\boldsymbol{A_d}$ dinamik sazlama ölçüsünün dəyişməsi ölçünün $\boldsymbol{\omega_d}$ dinamik sazlama xətasını doğurur. Nəticədə, emaldan sonra detalda əmələ gələn $\boldsymbol{A_\Delta}$ ölçüsü baxılan ölçülərin cəbri cəmi kimi təyin edilir:

$$\boldsymbol{A_\Delta = A_y + A_s + A_d} \qquad \textbf{(1)}$$

Dəzgahın qapayıcı bəndinin xətası texnoloji zəncirin bəndlərində meydana gələn sapmalar (ölçünün meyli) nəticəsində yaranır. Burada bir məsələyə xüsusi diqqət vermək lazımdır: qapayıcı bənddə bir məmul üçün xətanın meydana gəlməsinə və bir qrup məmul üçün xətanın meydana gəlməsinə.

Birinci variantda bir zəncirin reallaşması baş verir. Bu zaman bənddə müəyyən bir Δ_i sapması meydana gəlir. Nəticədə qapayıcı bənddə Δ_Δ xətası formalaşır. Bu xətanın qiyməti bəndin işarəsini (yəni onun xarakterini) nəzərə alınmaqla bənlərin hər birindəki Δ_i sapmaların cəbri cəmi təşkil edir:

$$\Delta_\Delta = \sum_{i=1}^{i=k} \vec{\Delta}_i - \sum_{i=k+1}^{i=m-1} \overleftarrow{\Delta}_i \qquad \textbf{(2)}$$

Bir qrup məmul üçün $\boldsymbol{\omega_\Delta}$ xətanın meydana gəlməsi variantında ölçü zənciri bir neçə dəfə reallaşdırırlır. Buna görə də bəndlərdəki Δ_i sapmalar yuxarı Δ_i^y yuxarı hədd qiymətindən Δ_i^a aşağı hədd qiymətinə qədər dəyişə bilər. Təşkilediici bəndin $\boldsymbol{\omega_i}$ xətası $\boldsymbol{\omega_i}$ səpələnmə sahəsini müəyyən edir və aşağıdakı kimi hesablanır:

$$\boldsymbol{\omega_i = \Delta_i^y - \Delta_i^a}$$

Beləliklə, bir dəstə məmum üçün qapayici bəndin xətası, ümumiyyətlə, sistemin bəndlərində yaranan sapmaların səpələnmə sahələrinin cəmi kimi hesablanan səpələnmə sahəsidir:

$$\omega_\Delta = \sum_{i}^{i=m-1} \omega_1 \quad , \qquad \textbf{(3)}$$

burada $\boldsymbol{m}$ – texnoloji zəncirin bəndlərinin sayıdır.

Ümumiyyətlə, təşkiledici bəndlərin müxtəlif təsirini nəzərə almaq üçün (3) ifadəsi aşağıdakı formada yazılmalıdır:

$$\omega_{\Delta} = \sum_{i}^{i=m-1} \xi_i \cdot \omega_1 \ , \qquad (4)$$

burada ξ_i – bəndin ötürmə nisbətidir.

ξ_i ötürmə nisbətləri xüsuis törəmələrdən ibarət olur.:

10. Слуцкер, А.И. Об элементарных актах в кинетике электрического разрушения полимеров/ А.И. Слуцкер, Ю.И. Поликарпов, В.Л. Гиляров //ЖТФ, -1996. т.66, №4, -с.105–113.
11. Закревский, В.А. Ионизационный механизм электрического разрушения (пробоя) полимерных диэлектрических пленок / В.А. Закревский, Н.Т. Сударь// ФТТ, -2013. т.55, №7, -с.1298–1303.
12. Закревский, В.А. Влияние объемного заряда на закономерности электрического разрушения полимеров/ В.А. Закревский, Н.Т. Сударь// ЖТФ, -2006. т.76, №12, -с.52-56.
13. Закревский, В.А. Электрическое разрушение тонких полимерных пленок / В.А. Закревский, Н.Т. Сударь// ФТТ, -2005. т.47, №5, -с.931-936.
14. Слуцкер, А.И. Некоторые вопросы электрической прочности полимеров/ А.И. Слуцкер, Т.М. Велиев, И.К. Алиева [и др.]// Письмо в ЖТФ, -1991. т.17, №13, -с. 67-72.
15. Алиева, И.К. О характере процесса рассасывания накопившихся изменений в кинетике электрического разрушения полимерных композиций/ И.К. Алиева, Т.М. Велиев, П.Б. Асилбейли [и др.]// Проблемы энергетики, -2017. №1, -с. 62-68.
16. Алиева, И.К. Накопительные процессы в кинетике электрического разрушения полимерных композиций ПП-ПЭНП при умеренных температурах/ И.К. Алиева, П.Б. Асилбейли, Т.М. Велиев [и др.]// Проблемы энергетики, -2015. №12, -с. 62-68.

Məqalə qəbul olunub: 20.04.2020
Tövsiyə edib: t.e.d., prof. V.H.Həsənov

UOT 621.86

SAGMİLL DƏYİRMANLARINDA QALDIRICI ASTARLARIN OPTİMAL KONSTRUKTİV ÖLÇÜLƏRİNİN TƏYİNİ

Həbibov İ.Ə., Həmidov F.M.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
AZ1007, Bakı şəh., Azadlıq pr., 16/21
Azərbaycan Beynəlxalq Mədən Şirkəti
AZ1004, Bakı şəh., Badamdar şoss., 165
E-mail: h.ibo@mail.ru, famil-433@mail.ru

Xülasə. *Məlumdur ki, dağ-mədən sənayesində filizlərin üyüdülməsi prosesində istifadə olunan kürəli dəyimanların ümumi iş prinsipinin dəyərləndirilməsində texnoloji göstəriciləri ilə yanaşı onun konstruktiv parametrləri: qaldırıcı sinə astarlarının sayı, onların yerləşmə bucağının qiyməti, qonşu iki qaldırıcı sinə astarları arasındakı məsafə və onun hündürlüyünə olan nisbətdən asılıdır.*

Bunları nəzərə alaraq, təqdim olunan məqalədə SAGMill dəyirmanlarında qaldırıcı astarların yerləşmə bucağının, iki qonşu qaldırıcı sinə astarları arasındakı məsafə və onların hündürlüyünə olan nisbətinin üyüdülən məhsulin çıxış göstəricilərinə olan təsiri qiymətləndirilməsi ilə bağlı tədqiqatların nəticələri verilmişdir.

Abstract. *It is known that along with the technological parameters used in the evaluation of the general working principle of the ore grinding process in the mining industry, its constructive parameters are: the number of hoisting linings, the cost of their position, and the distance between the two adjacent breast linings.*

With this in mind, the paper presents the results of studies on the impact of the position of the lifting linings on the SAGMill mills, the distance between the two adjacent chest linings, and their impact on the output indicators of the grinding products.

Аннотация. *Известно, что наряду с технологическими параметрами, используемыми при оценке качества процесса измельчения руды в шаровых мельницах серьезнее влияние оказывают конструктивные параметры футеровки - количество подъемных лайнеров, угол их расположения и расстояние между двумя соседними лайнерами.*

Учитывая это, в статье представлены результаты исследования по оценке влияния конструктивных параметров подъемных лайнеров мельниц типа SAGMill, а также расстояния между двумя соседними лайнерами на выходные показатели помола. В то же время рекомендуется эмпирическое выражение между конструктивными параметрами мельницы и отношением расстояния между подъемными лайнерами к их высоте.

Açar sözlər: *dağ-mədən sənayesi, filiz, üyütmə prosesi, metal kürələr, qaldırıcı və sinə astarları, qaldırıcı astarın yerləşmə bucağı, qonşu iki qaldırıcı sinə astarları arasındakı məsafə və onun hündürlüyünə olan nisbəti*

Key words: *mining industry, ore, grinding process, metal spindle, lifting and chest linings, angle of lifting lining, distance between two adjacent breast linings and its height*


Ключевые слова: *горнодобывающая промышленность, руда, процесс измельчения, металлические шары, подъемные лайнеры, угол их размещения, соотношение расстояния между двумя соседними лайнерами к их высоте*

Giriş. Müasir dağ-mədən sənayesi Azərbaycan Respublikasının iqtisadiyyatının yanacaq-energetika kompleksindən sonra dinamik inkişaf edən istiqamətlərdən biridir. Hal-hazırda sənayenin bu sektorunda AİMC (Azərbaycan İnternational Mining Company) və AzerGold şir-

kətləri fəaliyyət göstərirlər [1, 2, 3]. Bu istehsal sahələrində suxurların parçalarında və üyüdülməsində əsasən iki tip avadanlıqlardan - qırıcılar və üyüdücü dəyirmanlar istifadə olunur [4, 5].

AİMC-də üyütmə prosesində istifadə olunan SAG Mill tipli dəyirmanlarda baş verən boşdayanmaların səbəblərinin təhlili onların aşağıdakı kimi qruplaşdırılmasına imkan verir: dəyirmanın gövdəsində baş verən nasazlıqlar (I); astarların yenilənməsi və dağılması (II); hərəkət intiqalı daxil olan elementərin (reduktor, elektrik mühərriyi, val və dişli çarxlar) sıradan çıxması(III); pulpanın çıxışında qoruyucu politilen örtük torunun sıradan çıxması (IV); Dəyirmanın giriş boğazının zərbələrin təsirindən dağılması və yeyilməsi (V); Yağlama sistemindəki nasoslarda kipləndirmənin pozulması (VI) və elektrik sisteminə nəzarət və bərpa işlər(VII).

Şəkil 1-də son beş ildə (2014-2018) AİMC-də istismarda olan SAGMill tipli dəyirmanlarda baş verən imtinaların təhlili onların aradan qaldırılmasına sərf olunan vaxt tutumları əks olunmuşdur.



Şəkil 1. *2014-2018-ci illərdə AİMC-də istismarda olan SAGMill tipli dəyirmanlarda baş verən imtinalar və onların aradan qaldırılmasına sərf olunan vaxt*

Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, ümumilikdə AİMC-də imtina səbəblərinin aradan qaldırılmasına il ərzində 350 saatdan çox vaxt sərf olunur.

Hal-hazırda AİMC-də ölçüləri (diametr və eni) D x L=5,0 x 2,5 metr olan 2 ədəd SAGMill dəyirmanlarından istifadə olunur. Bu dəyirmanlar adətən birinci dərəcəli üyütmə prosesində tətbiq edilir. Burada reallaşan emel prosesinin mahiyyəti ondan ibarətdir ki, dəyirmanın fırlanma hərəkəti zamanı onun daxilinə yüklənmiş kürələr qaldırıcı astarların köməkliyi ilə müəyyən hündürlüyə qədər qaldırılaraq orada parobolik traektoriya boyu zəblə iri filiz kütləsin parçalayaraq, onun doğranmasını təmin edir. Eyni zamanda kürələr və filiz parçalarının dəyirmanda diyirlənməsi və sürtünməsi nəticəsində suxurların üyüdülməsi həyata keçirilir.

Dəyimanın ümumi iş prinsipinin dəyərləndirilməsində aşağıdakı faktorların nəzərə alınması önəmlidir: qaldırıcı sinə astarlarının sayı; qonşu iki qaldırıcı sinə astarları arasındakı məsafənin onun hündürlüyünə olan nisbəti; dəyirmanın sürəti; çıxışda torların yerləşmə mövqeyi və toplam açıq sahənin ölçüsü; kürələrin diametri və onların yüklənmə həcmi.


Məlumdur ki [6] üyüdücü dəyirmanın istismar prosesində astarların ölçü və həndəsəsinin dəyişməsi emal olunan məhsulun məhsuldarlığına və keyfiyyət göstəricilərinə təsir edir. Eyni zamanda qaldırıcı astarların kütləsinin böyük olması (90-120 kq) və onların dəyişdirilməsinin texniki və texnoloji baxımdan çətinliyi nəzərə alınmaqla bu istiqamətdə aparılan hər bir nəzəri və praktiki tədbirlərin aktuallığını təsdiqlənir.

Müasir dəyirmanlarda 20-dən çox profilli astarlar tətbiq olunur [7, 8]. Astarların layihələndirilməsində onların hazırlanma texnologiyasının mükəmməlliyi, montaj sxemi və vasitələri, təmir və bərpa işlərinin asanlığı, eləcə də yeyilməyə davamlığı nəzərə alınmalıdır. Eyni zamanda örtüyün profilinin və montaj sxeminin seçimi üyüdülən filizin və kürələri ölçülərindən, dəyirmanın fırlanma sürətindən və s. asılıdır [9].

Yuxarıda qeyd olunanlar nəzərə alınmaqla tədqiqat işində aşağıdakı məqsəd qoyulmuşdur.

Məqalədə qonşu iki qaldırıcı sinə astarları arasındakı məsafənin (A) və onun hündürlüyünə (B) olan nisbəti üyütmə prosesinə olan təsiri ilə bağlı tədqiqatların nəticələri əks olunmuşdur. Dəyirman gövdəsinin müntəzəm zərbələrdən, aqressiv mühit və sürtünmə yeyilməsindən qorunması üçün astarlar önəmli rol oynayır.

Şəkil 2-də qaldırıcı və sinə astarlarının dəyirmanın daxilində yerləşmə sxemi verilmişdir.



Şəkil 2. *Qaldırıcı və sinə astarlarının yerləşmə sxemi:*
1-sinə astarı; 2-qaldırıcı astar

Məlumdur ki, diametri 5 və 10 metr olan dəyirmanlar üçün kürələrin traektoriya boyu zərbə sürətləri uyğun olaraq 8 m/s və 12 m/s həddindən çox olmaması tövsiyə edilir. Beləki, əks halda kürələr sürətlə sinə astarları ilə toqquşarar onların qırılaraq tez sıradan çıxmasına səbəb ola bilirlər.

Bu səbəbdən SAG dəyirmanının etibarlı iş rejiminin təmini üçün yüklənən kürələrin həcminin və diametrinin, eləcə də qaldırıcı sinə astarlarının konstruktiv parametrlərinin düzgün seçilməsi vacib şərtlərdəndir.

Tədqiqatlar [10] nəticəsində müəyyən edilmişdir ki, Gədəbəy, Qədir və Uğur yataqlarının filizləri üçün SAG dəyirmanında kürə yüklənməsi 15%, kürə diametri 100 mm və qaldırıcı sinə astarlarının yerləşmə bucağının $\alpha=70^0$ altında olması arzu ediləndir. Bunlarla yanaşı astarların qalınlığının, hündürlüyünün və qonşu iki qaldırıcı astarlar arasındakı məsafənin qarşılıqlı münasibətlərinin nəzərə alınması olduqca önəmlidir.

Əsas hissə. 2013-cü ildə AİMC-də istismara verilən dəyirmanin daxili səthlərinə çəkilmiş örtük qatı rezindən olmaqla sinə astarları üçün qalınlığı 90 mm və qaldırıcı sinə astar üçün hündürlük 230 mm, $\alpha=90^0$ qəbul edilmişdir. Bu zaman A=427mm və B=D-H=>B=230-90=140mm olduğuna nəzər yetirsək görürük ki, A/B= 3,05 təşkli edir.


İstismar prosesində A-nın ədədi qiymətinin dəyişməməsi və B-nin müəyyən zamandan sonra yeyilmə səbəbindən kiçilməsi nəticəsində A/B nisbətinin ədədi qiymətinin artması tendensiyası baş verir. Müəyyən edilmişdir ki, bu nisbətin artması, eləcə də rezin və filizin bərklik göstəriciləri arasındakı böyük fərq örtük qatının yeyilməsi və son olaraq dağılıb sıradan çıxmasına səbəb olur. Bu zaman astarların istismar ömrü 973 saat olmuşdur.

İkinci mərhələdə astar qismində kompozit materialdan (polimetaldan) istifadə olunmuşdur. Bu zaman sinə astarının qalınlığı 90 mm (alt qatı 40 mm-lik rezin və üst qatı 50 mm-lik metal çubuqlar olmaqla) olan polimetal təbəqədən istifadə olunmuşdur. Örküyün konstruksiyasında A=427 mm sabit qalmaq şərti ilə qaldırıcı sinə astarının hündürlüyü D=250 mm-ə qədər

artırılmışdır. Belə olduqda B=D-H=>B=160 mm və A/B=2,67-ə qədər azalmışdır. Belə bir dizaynlı örtük matterialından istifadədə istismar ömrü ümumilikdə 1400 saatadək yüksəlmişdir.

Şək.2-də A/B=2,67 olan və toplam qalınlığı 90 mm (alt qatı 40 mm-lik rezin və üst qatı 50 mm-lik metal çubuqlar olmaqla), qaldırıcı sinə astarının yerləşmə bucağı 64^0 altında olduğu halda məhsuldarlıq və çıxış məhsulunun ölçüləri verilmişdir.

Şək.2-nin təhlilindən göründüyü kimi qaldırıcı astarların qeyd olunan dizaynında dəyirmanın istismar olunan 93 günündə ortalama məhsuldarlığı 80-85 ton/saat olmuşdur. İstismarın 38-ci günündən sonra A/B nisbəti artması və bu əsasda daha narın üyütmənin başlaması müşahidə edilmişdir.Şək.3-də bunu yaşıl qrafikdə daha aydın görmək olur. 3 aylıq istismardan sonra astarlarda davam edən yeyilmə prosesi A/B nisbəti 4,0-4,2-yə qədər yüksəlməsi və qaldırıcı sinə astarının yeraşmə bucağının ölçüsünün 64^0-dən 50^0-yə dəyişməsi üytmə prosesinə əks təsir göstərərək dəyirmanın məhsuldarlığının azalaraq 65-70 tona qədər düşməsinə səbəb olduğu müəyyən edilmişdir.



Şəkil 3. *A/B=2,67 və qalınlığı 90 mm olan qaldırıcı astarlarla təchiz olunmuş dəyirmanda üyütmənin nəticələri: 1- məhsuldarlıq, ton/saat : 2-dəyirmanın sürəti %; 3-150 mkm-dən kiçik hissəciklərin çıxışı, %; 4– 500 mkm böyük hissəciklərin çıxışı,%.*

Növbəti mərhələdə qaldırıcı sinə astarı hündürlüyü 275mm-ə, yerləşmə bucağı 64^0 olmaqla sabit saxlanılmış və sinə astarının qalınlığı 100 mm qəbul edilmişdir. Bu şərtlər daxilində istismar zamanı astarların ömrü 1800 saata yüksəlmiş və A/B nisbətinin ilkin qiyməti 2,44-ə dəyişmişdir.


Təcrübələrin nəticələrinin üyütmə prosesinə təsirini nəzərə alaraq sonrakı sınaqlar üçün qaldırıcı sinə astarlarının hündürlüyünün 325 mm, sinə astarlarının qalınlığı 130 mm qəbul olunması qərara alınmış, eləcə də sinə astarlarının yerləşmə bucağının ölçüsünün 70^0 qəbul etmək (beləki onların yeyilməsi səbəbindən kifayət qədər küraəni qaldıraraq traektoriya boyu zərbələr endirə bilməməsini nəzərə alınmaqla) təklif olunsada istehsalçı şirkətin onun 76^0 olmasını əsaslandırmağa çalışmışdır. Arqument olaraq tərəfimizdən təklif olunan qaldırıcı sinə astarlarının hazırlanması üçün xüsusi qəliblərin layihələndirilməsinin tələb olunduğunu və bunun üçün böyük həcmdə vəsaitin olmasını göstərmişdir.

Yeni dizaynlı qaldırıcı astarların istismarı zamanı dəyirmanın sürətinin aşağı salınması məcburiyyəti yaranmış, bu isə öz növbəsində kürələrin zərbə intensivliyinin az olmasına və yekunda dəyirmanın ilk 14 gündə istismar zamanı üyütmənin pozulmasına səbəb olmuşdur. Qaldırıcı astarların yerləşmə bucaq ölçüsünün yanlış seçimi üyütmə göstəricilərində qeyri stabilliyə səbəb olmuşdur. Astarların dizaynının təkmilləşməsi istiqamətində aparılan mərhələli təaqiqat işləri nəticəsində qaldırıci sinə astarlarının dəyişmə intensivliyi hər istismar ili üçün 6 dəfədən 2 dəfəyə qədər endirilmişdir. Bu zaman onların təmir və bərpasına sərf olunan vaxt itkisinin 72 saatdan 23 saata qədər azaldılmasına nail olunmuşdur.

Belə olduqda sınaq işləri dayandırılaraq qaldırıcı astarların 70^0 altında yerləşdirilməsi təmin olunmuş və üyütmə prosesi davam etdirilmişdir. A/B nisbətinin 2,19 olaraq başlaması qaldırıcı sinə astarının ömrünün 180 günə 4000 saatdan çox uzanmasına səbəb olmuşdur. Eyni zamanda qaldırıcı astarların ortalama istismar müddətinin uzadılmış və təmir müddəti 54 saatdan 20 saata kimi azalmışdır.

Bir dəst qaldırıcı sinə astarı istismar olunub dəyişdiriləndə sinə astarları öz istismar resursunun 30%-ni istifadə etdiyini nəzərə alsaq o zaman ikinci dəst qaldırıcı astarlarla işlədikdə A/B nisbəti 1.8-ə qədər düşmüşdür.

Şəkil 4-də 70 dərəcəli qaldırıcı astarlarla yeni sinə astarlarının eyni zamanda istismara (A/B nisbəti 2.19) verildikdən sonra əldə olunmuş nəticələr qeyd olunmuşdur.




***Şəkil 4**. Yeni dizaynlı qaldırıcı astarlarla təchiz olunmuş dəyirmanda üyütmənin nəticələri: 1- məhsuldarlıq, ton/saat; 2-dəyirmanın sürəti; 3-150mkm-dən kiçik hissəciklərin çıxışı, %; 4– 500 mkm böyük hissəciklərin çıxış %.*

Şəkil 3-ün təhlilindən göründüyü kimi, dəyirmanın bütün istismar müddətində məhsuldarlıq sabit ortalama 90 ton/saat olmuşdur. Bu zaman 150 mkm-dən kiçik hissəciklər ortalama çıxış göstəricisi - 50%, 500 mkm-dən böyük hissəciklər üçün - 20% ətrafında saxlamaq mümkün olmuşdur. İstismarın 190-cı gününə qədər parametrlərin ideal saxlanılması təmin olunmuş, lakin 190-210 günlər aralığında artıq A/B nisbətinin 4,17-yə qədər yüksəldiyindən üyütmə prosesinin pozulduğu müşahidə olunmuşdur.

Tədqiqatlar zamanı müəyyə olunmuşdur ki, qaldırıcı və sinə astarlarının resursları fərqlidirlər. Bu isə onların təmiri prosesində boş dayanmaların həcminin artmasına səbəb olur.

Şəkil 5-dən təklif olunan dizaynla hazırlanmış qaldırıcı sinə astarlarında və 30% resursunu istifadə etmiş sinə astarları ilə istismar prosesinin nəticələri əks edilmişdir.



Şəkil 5. *Təklif olunan dizaynla hazırlanmaş qaldırıcı sinə astarları və 30% resursunu istifadə etmiş sinə astarlarının istismar prosesinin nəticələri: 1- məhsuldarlıq, ton/saat; 2-dəyirmanın sürəti; 3-150 mkm-dən kiçik hissəciklərin çıxışı, %; 4– 500 mkm böyük hissəciklərin çıxış, %*

Şəkil 5-dən göründüyü kimi A/B nisbətinin kiçik olması (A/B =1,8) ilkin istismara verildikdə özünün müsbət təsirini, yəni məhsuldarlıq ortalama 105 ton/saat olmuşdur. Burada eyni zamanda kürələrin traektoriya boyunca hərəkət etməsi və qarşı tərəfdəki qaldırıcı astarları zədələyərək daha tez A/B ölçünün kiçilməsinə səbəb olmuşdur. Bu da mərhələli şəkildə məhsuldarlığın aşağı düşməsinə gətirib çıxarır.

Apardığımız araşdırmalar, eləcə də çoxsaylı təcrübə-sınaq işlərinin nəticələri, eləcə də simulyasiya proqramlarındakı edilmiş təhlillərə əsallanaraq SAG tipli dəyirmanlarda (diametr D=5,0 m olduqda) qaldırıcı sinə astarları arasındakı məsafənin (A) onun hündürlüyünə (B) olan nisbətinin (A/B) ideal qiymətinin dəyirmanın konstruktiv parametrləri arasında aşağıdakı emprik ifadənin tövsiyə olunması əsas verir:

- dəyirmanda fırlanma sürəti dəyişə bilən olduqda

$$\frac{A}{B} = \left(1 - \frac{70-\beta}{100}\right) \cdot \frac{\pi(D-2b)}{D} \cdot K$$

Burada Ball Mill dəyirmanı üçün K= 1,044, SAG Mill dəyirmanı üçün isə K=0,76 korreksiya əmsalıdır; A- qaldırıcı sinə astarları arasındakı məsafə; B- qaldırıcı sinə astarının hündürlüyü; D- dəyirmanın diametri; b- sinə astarının qalınlığı və β- hesablanmış kritik sürətin faiz göstəricisidir.

Nəticə. Beləliklə, aparılmış tədqiqatların yekunlarına əsaslanaraq aşağıdakı nəticəyə gəlmək olar:

- kürəli dəyirmanların məhsuldarlığı və çıxış məhsulunun keyfiyyəti (narınlama dərəcəsi) dəyirmanın sürəti və yüklənmə əmsalı ilə bərabər astarların dizaynından, o cümlədən A/B nisbətindən ciddi şəkildə asılıdır;
- kürəli ilkin istismar prosesi üçün A/B nisbətinin 2,2 dən kiçik götürülməsi məqsədəuyğun deyildir;
- qaldırıcı astar və sinə astarlarının istismar resurslarının arasındakı fərqin bərabərləşdirilməsi və təmir-bərpa işlərində boş dayanmaların azaldılması önəmli faktordur və bu məqsədlə ikinci dəst qaldırıcı astarlarının hündürlüyünün kiçildilməsi (D = 280 mm) tövsiyə olunur.
- diametri 5 m olan dəyirmanlarda qaldırıcı sinə astarlarının sayının 24-dən 28 qədər artması məqsədə uyğundur.

Ədəbiyyat

1. Həmidov, F.M. Azərbaycanın dağ-mədən sənayesində istifadə olunan dəyirmanların hissələrinin yeyilmə intensivliyinin analizi/ F.M. Həmidov, İ.Ə. Həbibov// "Нефтин, qazın geotexnoloji problemləri və kimya" ETİ-nun Elmi Əsərləri, -Bakı: -2015. XVI cild, -s. 282-287.
2. Габибов, И. А. Результаты усовершенствований мельниц типа SAG, используемых в Азербайджанской международной горнодобывающей компании/ И.А. Габибов, Ф.М. Гамидов, П.П. Чакраборти// Известия уральского государственного горного университета, -2018. №2(50), -с. 102-106.
3. Гамидов, Ф.М. Современное состояние и перспективы развития горнодобывающей промышленности Азербайджана// Материалы XLI Международной Научной Конференции «Теоретические и практические вопросы современной науки», Eurasian Scientific Association, №7(41), -с.28-29.
4. Перов, В.А. Дробление, измельчение и грохочение полезных ископаемых / В.А. Перов. - М.: Недра, -1990. -301с.
5. Лукина, К.И. Процессы и основное оборудование для обогащения полезных ископаемых / К.И. Лукина, В.П. Шилаев, В.П. Якушкин. - М.: Издательство МГОУ, -2006. -216 с.
6. The Selection and Design of Mill Liners
7. Дырда, В. И. Резиновые футеровки технологических машин / В. И. Дырда, Р. П. Зозуля, А. П. Левицкий, И. В. Хмель. –Днепропетровск: -2014. -255 с.
8. Чижик, Е.Ф. Барабанные рудоизмельчительные мельницы с резиновой футеровкой/ Е.Ф. Чижик. -Барнаул: -2005. -360 стр.
9. Богданов, В.С. Рабочие элементы измельчающего оборудования: тематическая подборка/ В.С. Богданов. Цемент и его применение. -СПб: "Цемент", -2015. №2. -с. 46-74.
10. Həmidov, F.M. Dağ-mədən sənayesində tətbiq olunan üyüdücü dəyirmanların kürələrinin istismar göstəricilərinin yeksəldilməsi // Doktorantların və gənc tədqiqatçıların XX respublika elmi-konfransının materialları, –Bakı: ADNSU-mətbəəsi, 1-ci cild, -c.307-308.

Məqalə qəbul olunub: 26.04.2020
Tövsiyə edib: t.e.d., prof. V.H.Həsənov

UOT 621.396

REGİONAL YERÜSTÜ MOBİL RABİTƏ ŞƏBƏKƏLƏRİNİN QURULMASININ PRAKTİKİ MƏSƏLƏLƏRİ

Məmmədov İ.R., Hüseynov E.M.

Azərbaycan Texniki Universiteti
AZ 1073, Bakı şəh., H.Cavid pr., 25
E-mail: isamamedov@bk.ru, eldaniz.huseyn@huawei.com

Xülasə. *Məqalədə regional yerüstü mobul rabitə şəbəkələrində xidmət zonasının və radiovericilərdən tələb olunan tam gücün hesablanması məsələlərinə baxılmışdır. Trank tipli və şanvari yerüstü mobil rabitə şəbəkələrinin hesablanması xüsusiyyətləri araşdırılmışdır. Hesabat zamanı regional yerüstü mobil rabitə şəbəkələrinin xüsusiyyətləri nəzərə alınmışdır.*

Müxtəlif faktorlar və keçid maneələri nəzərə alınmaqla radiovericinin gücünün dəqiqləşdirilmiş qiymətinin hesablanması üçün riyazi ifadə çıxarılmışdır. Trank rabitəsində dinamiki rejimdə radioqəbuledicinin xidmət zonasının radiusu qrafiki olaraq tapılmışdır. CDMA

sistemində qəbul məntəqəsində tələb olunan siqnal/maneə nisbətini təmin edən güc ilə xidmət zonasının radiusu arasında qarşılıqlı əlaqəni əks etdirən riyazi ifadə çıxarılmışdır.

Abstract. *In this paper questions of calculation of service area and required power of transmitters in the network of regional terrestrial mobile communication are considered. Features of calculation of network of trunking and cellular mobile communication are studied. At the calculation the peculiarities of the types of regional terrestrial mobile communication systems are taken into account.*

Mathematical expression for more accurate calculation of the transmitter power, taking into account the cross distortions and other influencing factors is obtained. The radius of the service area in the trunked communication system is graphically determined taking into account the sensitivity of the receiver and the signal attenuation during propagation. An expression for the interconnection between the power providing the required signal-to-interference ratio at the receiving end and the radius of the service area in the CDMA system is found.

Аннотация. *В статье рассмотрены вопросы расчета зоны обслуживания и требуемой мощности передатчиков в сети региональной наземной мобильной связи. Изучены особенности расчета сети транкинговой и сотовой мобильной связи. При расчете учтены особенности видов региональной наземной мобильной связи.*

Получено математическое выражение для уточненного расчета мощности передатчика с учетом переходных помех и других влияющих факторов. Графически определен радиус зоны обслуживания в системе транкинговой связи с учетом чувствительности приемника и затухания сигнала при распространении. Найдено выражение для взаимной связи между мощностью, обеспечивающей требуемое отношение сигнал/помеха в точке приема и радиусом зоны обслуживания в системе CDMA.

Açar sözlər: *regional yerüstü mobul rabitə, xidmət zonası, radiovericinin şüalanma gücü, düz radiogörmə məsafəsi, şəbəkənin tezlik-ərazi planlaşdırılması, Fraunqofer zonası.*

Keywords: *regional terrestrial mobile communication, service area, radiated power of transmitter, distance of direct visibility, frequency-territorial planning of network, Fraunqofer zone.*

Ключевые слова: *региональная наземная мобильная связь, зона обслуживания, излучаемая мощность передатчика, расстояние прямой видимости, частотно-территориальное планирование сети, зона Фраунгофера*

Giriş. Mobil rabitə sistemləri yüksək tələblərə cavab verən, dünyada öz geniş tətbiqini tapmış, sürətlə inkişaf edən ikisəviyyəli rabitə sistemləridir. Radiosəviyyə və ümumi istifadəli telefon şəbəkəsi (ÜİTŞ) kimi uyğun olaraq birinci və ikinci səviyyədən təşkil olunmuş bu rabitə sistemlərində abonent eyni zamanda bir və ya bir neçə abonent ilə rabitə yaradaraq, verilənlər, səs və (və ya) təsvir signallarını mübadilə edə bilir [1, səh. 4, 2, səh. 13-18]. Mobil və baza stansiyalarının hər ikisi həm radioqəbuledicidən, həm də radiovericidən ibarət olur. Çox zaman onlar oxşar sxem üzrə qurulurlar [3, səh. 155-156]. Mobil rabitə sistemləri müxtəlif göstəricilərinə görə siniflşdirilir və həm də nəsillərə bölünürlər. Şəbəkənin strukturuna görə regional yerüstü, qlobal peyk, fərdi radioçağırış tipli mobil rabitə sistemlərini fərqləndirirlər [1, səh. 6-12]. Regional yerüstü mobil rabitə sistemləri trank, şanvari və xətti mobil rabitə sistemlərinə bölünürlər. Burada regional yerüstü mobil rabitənin trank və şanvari növlərinə baxılacaqdır.

Baza stansiyasının (BS-in) xidmət zonası dedikdə, elə ərazi nəzərdə tutulur ki, burada faydalı siqnalın yaratdığı sahə gərginliyi zamanın və ərazinin verilmiş faizi müddətində radioqəbuledicinin məxsusi küylərindən və təsir edən maneələrin səviyyəsindən müəyyən dərəcədə artıq olsun [4, səh. 6-8]. Mobil rabitə şəbəkələri planlaşdırılan zaman müxtəlif faktorlar, o cümlədən mobil rabitənin tipi, radiodalğaların yayılma şəraiti və s. nəzərə alınır. Tezlik-ərazi planlaşdırılması radioqəbuledicinin həssaslığı, düz radiogörmə məsafəsi, siqnalın yayılma zamanı sönməsi və s. kimi faktorların hesablanmasına əsaslanır [2, səh. 267-271, 5, səh.145-147]. Həm də sistemdə təmin olunacaq maneədayanıqlığı digər prametrlərin də tələb olunan qiymətlərinə ciddi təsir edir. Ona

görə də hər hansı tip mobil rabitə şəbəkəsinin tezlik-ərazi planlaşdırılmasının əsas prinsiplərinin araşdırılması və müqayisəsi elmi-texniki maraq doğurur.

Məqalənin məqsədi trank və CDMA (Code Division Multiple Access – Koda görə bölünmüş çoxstansiyalı giriş) tipli şanvari mobl rabitə şəbəkələrinin tezlik-ərazi planlaşdırılmasının əsas prinsiplərinin təhlili və müqayisəli analizidir.

Şəbəkənin planlaşdırılması zamanı nəzərə alınan əsas faktorlar. Yerüstü mobil rabitə sistemlərinin işlədiyi tezlik diapazonunda etibarlı qəbul zonası olaraq səthi dalğaların düz radiogörmə məsafəsində yaratdığı sahə gərginliyinin minimal tələb olunan qiymətinin təmin olunduğu zona nəzərdə tutulur. Düz radiogörmə məsafəsindən daha uzaqda səthi dalğaların yayılması kəskin pisləşir. Düz radiogörmənin hesablanması zamanı Yerin sivriliyi, atmosferin refraksiyası, verici və qəbuledici antennaların ekvivalent hündürlükləri nəzərə alınmalıdır. Həmin məsafəni aşağıdakı ifadə ilə hesablamaq olar [4, səh. 14]:

$$R_d = 4{,}1\left(\sqrt{h_1} + \sqrt{h_2}\right),\ \text{km}, \tag{1}$$

burada h_1 və h_2 – uyğun olaraq verici və qəbuledici antennaların m-lə olan hündürlükləridir.

Yerüstü şanvari mobil rabitə şəbəkələrində qonşu klasterlər arasında məsafə klasterdəki kanalların sayından asılı olur. Klasterlər arasında minimal məsafə aşağıdakı məlum ifadə ilə tapılır [6, səh.16]:

$$R_{min} = R_s\sqrt{3N}\ , \tag{2}$$

burada N – klasterdəki kanalların sayı, R_s – sotun radiusudur.

Sahə gərginliyinin minimal tələb olunan qiyməti müxtəlif sistemlər üçün ədəbiyyatlarda verilmişdir. Məs., TETRA (Terrestrial Trunked Radio – Yerüstü trank radiosu) sistemi üçün olan standartda statik və dinamiki rejimdə BS və abonent stansiyalarının (AS-in) radioqəbuledicilərinin həssaslıqları ayrı-ayrılıqda dBm-lə verilmişdir [7, səh.2]. Bu parametrlərin qiymətlərindən şəbəkənin qurulması zamanı istifadə edirlər.

Sistem ilkin olaraq seçildikdən sora onun parametrləri, yəni bu sistemi əks etdirən hər hansı variant qiymətləndirilə bilər. Əgər əvvəlki verilənlər çoxluğu analiz olunduqdan sonra sonrakı parametrlər həmişə dəqiqləşdirilir və düzəldilirsə, onda planlaşdırma prosesi iterativ adlanır [8, səh. 579]. Trank mobil rabitə şəbəkəsinin planlaşdırılması iterativ xarakter daşıyır və aşağıdakı üç faza üzrə yerinə yetirilə bilər: 1. İlkin qiymətləndirmə. 2. Daha dəqiq qiymətləndirmə. 3. Kommersiya və istismar faktorlarının qiymətləndirilməsi.

Bu şəbəkənin tezlik-ərazi planlaşdırılması mərhələlər üzrə aşağıdakı ardıcıllıqla həyata keçirilə bilər. Əvvəlcə xidmət zonası üzrə tələb olunan güc seli sıxlığının (və ya gücə görə siqnal/küy nisbətinin $w_{s/k}$) buraxıla bilən qiyməti hesablanır [2, səh. 245]:

$$w_{s/k} = P_s(R) - P_k\ , \qquad \text{dB}, \tag{3}$$

burada $P_s(R) - R$ məsafəsində siqnalın faydalı gücü, dB; P_k – küylərin gücüdür, dB.

Bundan sonra maneələrin gücü, yəni interferensiya məsələləri öz həllini tapmalıdır. Yürüstü mobil rabitə sistemlərində sistemdaxili maneələrin təsiri böyük olur. Qonşu klasterlərin BS-lərinin bu klasterdə yaratdığı maneələr sistemdaxili interferensiyalara yol açır. CDMA sistemində bütün abonentlər eyni tezlik zolağında işlədiyindən, bir abonentin faydalı siqnalı digər abonent üçün maneə sayılır [3, səh. 147, 9, səh. 1788, 10, səh. 550-556]. Ona görə də siqnal/sistemdaxili maneələr nisbəti tapılır [2, səh. 266]:

$$w_{S/I} = P_{s0} - P_{m0}\ , \qquad \text{dB}, \tag{4}$$

burada P_{s0} və P_{m0} – uyğun olaraq siqnalın və maneənin güclərinin median (və ya orta) qiymətləridir.

Daha sonra trafik problemi, yəni tələb olunan telefon yükünün təmin olunması imkanı həll olunmalıdır.

BS-in xidmət zonasında etibarlı qəbul. Qəbul məntəqəsində yaradılan faydalı sahə gərginliyi BS-in radiovericisinin gücü və radiodalğaların yayılması zamanı baş verən sönmələrin səviyyəsi ilə müəyyən olunur. Sahə gərginliyinin qiymətini hesablamaq üçün radiovericisinin effektiv şüalanma gücünü təyin edirlər. BS-in *i*-ci kanalının radiovericisinin 1 Vt-a nəzərən dB ilə ifadə olunan effektiv şüalanma gücü belə tapıla bilər [4, səh. 10, 11, səh.40]:

$$P_{i0} = P_i + G_A + \eta_k, \quad \text{dBVt}, \tag{5}$$

burada P_i – *i*-ci kanalının radiovericisinin 1 Vt-a nəzərən dB ilə gücü, G_A – verici antennanın yarımdalğa vibratoruna nəzərən dB ilə ifadə olunmuş gücə görə gücləndirmə əmsalı, η_k – fiderin dB ilə gücü ötürmə əmsalıdır.

Lakin qeyd olunmalıdır ki, radiovericinin gücünün bir hissəsi faydalı olmayan məhsullara sərf olunur. Məs., genişzolaqlı siqnalların gücləndirilməsi zamanı AM-AM (amplitud-amplitud) və AM-FM (amplitud-faz) keçidləri kimi qeyri-xətti təhriflər yaranır [12, səh. 330, 13, səh. 214]. Ona görə də radiovericinin gücünün hesablanması zamanı bu itkilər nəzərə alınmalıdır.

Radiodalğaların yayılması zamanı baş verən sönmələrin səviyyəsinin təyin olunması üçün müxtəlif modellərdən istifadə edirlər. Mobil rabitənin işlədiyi tezlik diapazonu üçün EUROCOST (Avropa Elmi və TexnikiTədqiqatlar Birliyi) modeli Okamura modeli, Okamura-Xata modeli, Li modeli və ya faydalı siqnalın gücünün məsafənin *n*-ci dərəcəsindən (burada *n* – sönmə parametridir) asılı olaraq tərs mütənasib qanunla azaldığı model xarakterik hesab olunur [6, səh.15]. Bu modellərdən hər hansı birini tətbiq etsək, onda qəbul məntəqəsində gücün qiymətini belə ifadə edə bilərik [2, səh. 207]:

$$P_q = P_{i0} - L_{s0}, \quad \text{dB}, \tag{6}$$

burada L_{0s} – siqnalın gücünün yayılma trassında dB ilə ifadə olunan sönməsidir.

Radioqəbuledicinin girişində lazımi güc təmin olunmalıdır. Qəbuledicinin girişində tələb olunan güc müxtəlif amillərdən asılı olur. Həmin güc rəqəmli sistemlər üçün, məs., aşağıdakı məlum ifadə ilə təyin oluna bilər [14, səh.55]:

$$P_t = h_b^2 T_k k / \tau_s, \tag{7}$$

burada $h_b^2 = E_b / N_0$ – energetiki parametr, E_b – bitin enerjisi, N_0 – küyün intensivliyi, T_k – küy temperaturu, $k = 1{,}38 \cdot 10^{-23} C/K$ – Bolsman sabiti, τ_s – kanal siqnalının davametmə müddətidir.


Trank tipli yerüstü mobil rabitə sistemində şəbəkənin tezlik-ərazi planlaşdırılması zamanı həm AS-in, həm də BS-in radioqəbuledicilərinin həssaslığının müxtəlif qəbul şərtləri üçün standartlarda göstərilmiş qiymətlərindən istifadə etmək məqsədəuyğundur. Radiosiqnalların yayılma şərtlərindən asılı olaraq statik və dinamiki qəbul şəraitində nitq siqnallarının qəbulu üçün bu həssaslıq -103...-115 dBm arasında olur, həm də statik rejim öz yüksək həssaslığı ilə fərqlənir (BS-in qəbuledicisi üçün bu həssaslıq -115 dBm-dir) [7, səh.2]. Şəbəkənin qurulması zamanı relyef də nəzərə alınmalıdır. Məs., Azərbaycan İnşaat Mühəndisləri Universitetinin binası üzərində olan trank rabitəsi BS-inin xidmət zonasının radiusu hesablandıqda ərazinin "kvazihamar" olması, sıx şəhər tikintilərindən ibarət olması nəzərə alınmalıdır. Bu halda TETRA standartında Bux modelindən istifadə olunur.

Dinamiki rejimdə AS-in radioqəbuledicisinin həssaslığını -103dBm qəbul edək. Verici antennanın ekvivalent hündürlüyünün 94 m olduğunu hesablayırıq (bu zaman antennanın yerləşdiyi

yerin elektron xəritədən tapılmış dəniz səviyyəsindən hündürlüyünü, ətraf ərazinin qeyri-hamar olmasını və antennanın öz hündürlüyünü nəzərə alaraq, məlum üsulla ekvivalent hündürlüyü hesablayırıq).

BS-in radiovericisinin gücünün P_i = 20 Vt = 13 dBVt, η_k = - 0,15 dB, G_A = 3 dB olduğunu bilərək, şüalanma gücünü hesablayırıq: P_{i0} = 15,85 dBVt. Xidmət zonasında ən azı radioqəbuledicinin həssaslığına P_{0A} bərabər güc təmin olunmalıdır: $P_q = P_{0A}$. Onda (6) ifadəsindən itkiləri hesablayırıq: $L_{s0} = P_{i0} - P_{0A}$ = 15,85+103= 118,85 dB.

Ədəbiyyatlarda siqnalın fəzada yayılması zamanı baş verən sönmələrin məsafədən asılılıq qarfikləri verilmişdir. Baxılan şərtlər üçün verilmiş asılılıqdan istifadə edək [7, səh. 2].



Şəkil. *Şəhər yerlərində sıx tikinti olan ərazilərdə "kvazihamar" relyef üçün radiodalğaların yayılma zamanı məsafədən asılı olaraq sönməsi qrafiki*

Şəkildən aydın olur ki, verilmiş şərtlər daxilində xidmət zonasının radiusu: $R_x \approx$ 3,5 км. Aydındır ki, bu məsafə düz radiogörmə məsafəsindən kiçikdir.

Lakin daha böyük radiusa malik xidmət zonasının hesablanması zamanı digər modeldən istifadə olunması daha dəqiq nəticələr almağa imkan verir. Belə ki, uzaq zonanın "başlanğıcı" sayılan R_0 məsafəsində L_0 güc itkisi nəzərə alınmaqla R məsafəsində siqnalın gücü belə hesablana bilər [6, səh.15]:

$$P_q(R) = P_{i0} - L_0 - 10n_1 \, lg(R / R_0). \qquad (7a)$$

Burada n =2...5 – şəhər şəraitində elektromaqnit dalğalarının yayılması zamanı orta sönmə əmsalıdır. R_0 məsafəsi (Fraunqofer zonasının sərhəddi) aşağıdakı şərtlərdən tapılır: $\lambda < R_0$ və $2D^2 / \lambda < R_0$. Burada D – verici antennanın maksimal xətti ölçüsüdür.

Lakin müxtəlif maneələrin və əksolunmaların təsiri, radiodalğaların yayılma şəraitinin dəyişməsi nəticəsində $P_q(R)$ gücü təsadüfi xarakter daşıyır və bunu nəzərə alaraq (7a) ifadəsini belə yazırıq:

$$P_q(R) = P_{i0} - L_0 - 10n_1 \, lg(R / R_0) + P(\sigma). \qquad (7b)$$

Burada $P(\sigma)$ – gücün təsadüfi dəyişən hissəsidir.

Regional yerüstü şanvari mobil rabitədə CDMA tətbiq olunduqda qəbul məntəqəsində tələb olunan gücün qiyməti aşağıdakı ifadə ilə hesablanır [15, səh. 9, 16, səh.18]:

$$P_t = P_{OA} + \frac{1}{2}\left[10 \, lg(\gamma f_{ks} / r) - w_t + 1\right], \quad \text{dBVt}, \qquad (8)$$

burada w_t – qəbuledicinin girişində gücə görə tələb olunan siqnal/küy nisbəti, dB; P_{OA} – radioqəbuleicinin həssaslığı, dBVt; r – simvolların veriliş sürəti, f_{ks} – küyəoxşar siqnalın

spektrinin enidir. γ – sabit əmsal olub, siqnalın radioqəbuledicidə işlənmə xüsusiyyətini xarakterizə edir. Bu ifadədəki 1 rəqəmi siqnal/küy nisbətinin buraxıla bilən qiymətinin 1 dB azaltmaq imkanını göstərir.

Tutaq ki, CDMA-nın tətbiq olunduğu yerüstü mobil rabitədə qəbul məntəqəsində tələb olunan güc təmin olunmuşdur $P_q = P_t$. Şüalanan gücün məsafənin *n*-ci dərəcəsindən asılı olaraq tərs mütənasib qanunla azaldığı modeli tətbiq edərək, qəbul məntəqəsindəki gücü hesablaya bilərik [6, səh.15]:

$$P_q = P_{i0} A R_i^{-n}, \tag{9}$$

burada R_i – *i*-ci qəbuledicidən BS-ə qədər olan məsafə, A – sabit əmsaldır.

(9) ifadəsini dB ilə ifadə etmək üçün hər iki tərəfi 10-a vurub loqarifmləsək və nəticəni (8)-də nəzərə alsaq taparıq:

$$P_{i0} = P_{OA} + \frac{1}{2}\left[10\,lg(\gamma f_{ks} / r) - w_t + 1\right] - 10\,lg\,A + 10n\,lg\,R_i, \quad \text{dBVt}, \tag{10}$$

(5) ifadəsini (10)-da nəzərə alaraq radiovericidən tələb olunan faydalı gücü hesablaya bilərik

$$P_i = P_{OA} + \frac{1}{2}\left[10\,lg(\gamma f_{ks} / r) - w_t + 1\right] - G_A - \eta_k - 10\,lg\,A + 10n\,lg\,R_i, \text{ dBVt} \tag{11}$$

Lakin CDMA sistemində küyəoxşar siqnallardan istifadə olunur ki, onların spektrinin eni geniş olur. Belə siqnalların gücləndirilməsi həmişə AM-AM və AM-FM tipli keçid maneələri ilə müşaiyət olunur, yəni hasil olunan gücün bir hissəsi keçid maneələrinə sərf olunur [13, səh. 361-364]. Ona görə də radiovericinin hasil etdiyi güc $P_{\Sigma i}$ tələb olunan P_i gücündən artıq olmalıdır. Ədəbiyyatlarda AM-AM və AM-FM keçid maneələrinin gücü təyin olunmuşdur. Bu zaman radiovericinin hasil etdiyi cəm güc [11, səh.41]:

$$P_{\Sigma i} = P_i\left(1 + \frac{1}{4}b^2 P_i^2 + \frac{9}{64}b_3^2 P_i^2\right). \tag{12}$$

Burada

$$P_{AM-AM} = \frac{9}{64}b_3^2 P_i^3 \tag{13}$$

AM-AM maneələrinin gücü,

$$P_{AM-FM} = \frac{1}{4}b^2 P_i^3 \tag{14}$$

AM-FM maneələrinin gücü, b_3 – polinomun kub həddinin əmsalı, b – AM-FM keçid maneələrinin səviyyəsini göstərən əmsaldır.

Gücü dBVt-la ifadə etmək üçün (12) ifadəsinin hər iki tərəfini loqarifmləyərək 10-a vururuq:

$$P_{\Sigma i} = P_i + 10lg\left(1 + \frac{1}{4}b^2 P_i^2 + \frac{9}{64}b_3^2 P_i^2\right). \tag{15}$$

Burada $P_{\Sigma i}$ və P_i gücləri dBVt-la ifadə olunmuşdur.

(15)-dən (11) ifadəsində istifadə etsək alarıq:

$$P_{\Sigma i} - 10lg\left(1+\frac{1}{4}b^2P_i^2+\frac{9}{64}b_3^2P_i^2\right)= \\ = P_{OA}+\frac{1}{2}\left[10lg(\gamma f_{ks}/R)-w_t+1\right]-G_A-\eta_k-10lg\,A+10n\,lg\,R_i \quad (16)$$

Aydındır ki, bu ifadədə əmsalları ilə verilmiş P_i^2 gücü faydalı güc kimi istifadə oluna bilməz. Lakin radiovericinin gücü radioqəbuledicinin verilmiş həssaslığında gücə görə tələb olunan siqnal/maneə nisbətinin (və deməli, maneədayanıqlığının) təmin olunması üçün tələb olunan gücdən artıq olmalıdır. Həm də hesablamalar göstərir ki, həmin keçid maneələrinin gücü aktiv elementin xarakteristikasının qeyri-xəttiliyindən asılı olaraq müəyyən səviyyədə, hətta 20% ola bilər [17, səh. 1890].

Nəticə. Mobil rabitə şəbəkələri planlaşdırılan zaman mobil rabitənin tipi, radioqəbuledicinin həssaslığı, düz radiogörmə məsafəsi, siqnalın yayılma zamanı sönməsi kimi faktorlar əsas götürülür. Sistemdə təmin olunacaq maneədayanıqlığı digər prametrlərin qiymətinə ciddi təsir edir.

Regional yerüstü mobil rabitə şəbəkələrinin planlaşdırılmasında radiodalğaların yayılması zamanı baş verən sönmələrin səviyyəsinin təyin olunması üçün müxtəlif modellərdən istifadə oluna bilər.

CDMA-nin tətbiq olunduğu şanvari mobil rabitə sistemində küyəoxşar siqnallardan istifadə olunur ki, onların spektrinin eni geniş olur. Belə siqnalların gücləndirilməsi həmişə AM-AM və AM-FM tipli keçid maneələri ilə müşaiyət olunur və ona görə də radiovericinin hasil etdiyi güc tələb olunan gücdən artıq olmalıdır.

Məqalədə ilk dəfə olaraq AM-AM və AM-FM tipli keçid maneələri nəzərə alınmaqla radiovericidən tələb olunan gücün hesablanması üçün ifadə çıxarılmışdır. Alınmış nəticələr 3-cü nəsil GSM tipli yerüstü mobil rabitə şəbəkələrinin planlaşdırılması zamanı istifadə oluna bilər.

Литература

1. Мухин, А.М. Энциклопедия мобильной связи/ А.М. Мухин, Л.С. Чайников, -СПб: Наука и техника, -т. 1. –2001. -240 с.
2. Маковаева, М.М. Системы связи с подвижными объектами/ М.М. Маковаева, Ю.С. Шинаков, –М.: Радио и связь, -2002. - 440 с.
3. Берлин, А.Н. Цифровые сотовые системы связи/ А.Н. Берлин. –М.: Эко-Трендз, -2007. -296 с.
4. Сети телевизионного и звукового ОВЧ ЧМ вещания: Справочник/ М.Г. Локшин, А.А. Шур, А.В. Кокорев [и др.]. – М.: Радио и связь, -1988. -144 с.
5. Мамедов, И.Р. Уточнение территориального разноса ТВ станций с учетом быстрых замираний сигнала в канале ТВ вещания/ И.Р. Мамедов, И.Д. Ахадов// Метрология и измерительная техника в связи, -2005. № 6, -с.145-149.
6. Апорович, А.Ф. Адаптация по энергетическим параметрам в системах сотовой связи / А.Ф. Апорович, М.Б. Березка, Г.Н. Демидович// Электросвязь, -2001. №11, -с. 14-17.
7. http://www.sagatelecom.ru/encyclopedia/protocol/detail.
8. Телевидение/ Под ред. В.Е. Джаконии. – М.: Горячая Линия-Телеком, -2007. -616 с.
9. Shimon Moshavi, Daniel Yellin, John S. Sadowsky, Yoni Perets, Kobby Pick. Pilot Interference Cancellation Technology for CDMA Cellular Networks// IEEE Transactions on Vehicular Technology, vol. 54, No. 5, September, -2005, -p. 1781-1792
10. Галькин, В.А. Цифровая мобильная связь/ В.А. Галькин. –М.: Горячая линия-Телеком, -2012. -592 с.
11. Мамедов, И.Р. Расчет требуемой мощности передатчика базовой станции мобильной связи / И.Р. Мамедов, М.А. Велиев, Н.Т. Керимов// Научн. Труды Азерб. Государственной Морской Академии, -2008. №7, -с. 40-42.

12. Мамедов, И.Р., Эфендиев, И.Д. Вопросы определения мощности искажения типа АМ-АМ переходов // Труды 19-й Международной НТК «Современные телевидение и радиоэлектроника», -Москва: -2011, -с. 329-332.
13. Варакин, Л.Е. Системы связи с шумоподобными сигналами/ Л.Е. Варакин. –М.: Радио и связь, -1985. -384 с.
14. Мамедов, И.Р. Особенности применения многоканального ТВ в г. Баку и на Апшеронском полуострове/ И.Р. Мамедов, И.Д. Эфендиев// Электросвязь, -2016. №12, -с. 57-61.
15. Шинаков, Ю.С. Управление мощностью в сотовых системах связи с кодовым разделением каналов // Электросвязь, -2001. № 2, -с.8-11.
16. Мамедов, И.Р. Выбор и управление мощностью абонентского передатчика в интерактивном телевидении с интеграцией служб // Электросвязь, -2008. №1, -с. 34-36.
17. Sanches-Garsia J., Smith D. Capture Probability in Rician Fading Channels With Power Control in the Transmitters// IEEE trans. On Communications, -2002. v.50, No 12, -p.1889 - 1891.

Məqalə qəbul olunub: 01.04.2020
Tövsiyə edib: t.e.d., prof. V.H.Həsənov

УДК 681.513

МЕТОД ОТБОРА ИНФОРМАЦИОННЫХ ПРИЗНАКОВ ДЛЯ ИНФОРМАЦИОННЫХ МОДЕЛЕЙ СИСТЕМ УПРАВЛЕНИЯ СЛОЖНЫМИ ДИНАМИЧЕСКИМИ ОБЪЕКТАМИ

[1]Павленко М.А., [1]Тристан А.В., [1]Осиевский С.В., [1]Борозинец И.А., [2]Бердник П.Г.

[1]Харьковский национальный университет Воздушных Сил имени Ивана Кожедуба
г. Харьков, ул. Сумская, 77/79
[2] Харьковский национальный университет имени В.Н. Каразина
г. Харьков, пл. Свободы, 4
E-mail: bpgpma@ukr.net, bpgpma@gmail.com

Аннотация. *В статье предложен метод формирования информационных признаков информационной модели конфликтных ситуаций, который предназначен для решения задач проектирования системы информационного обеспечения процессов принятия решений оператором при управлении сложными динамическими системами.*

Abstract. *The article proposes a method for the formation of information signs of the information model of conflict situations, which is designed to solve the problems of designing a system of information support for decision-making processes by the operator when managing complex dynamic systems.*

Xülasə. *Məqalədə mürəkkəb dinamik sistemləri idarə edərkən operator tərəfindən qərar qəbul etmə proseslərinə informasiya dəstəyi sisteminin layihələndirilməsi problemlərini həll etmək üçün nəzərdə tutlmuş müqayisəli vəziyyətlərin informasiya modelinin informasiya əlamətlərinin formalaşdırılması metodu təklif olunur.*

Ключевые слова: *информационная модель, интеллектуальная деятельность оператора, процесс принятия решения, системы управления, контроль, динамические объекты*

Key words: *information model, intellectual activity of the operator, decision-making process, control systems, control, dynamic objects*

Açar sözlər: *məlumat modeli, operatorun intellektual fəaliyyəti, qərar qəbuletmə prosesi, idarəetmə sistemləri, nəzarət, dinamik obyektlər*

Введение. Анализ процессов принятия решения в автоматизированных системах управления (АСУ) [1] показывает, что деятельность оператора имеет явно выраженный информационный характер. До 90% времени оператор расходует на выполнение операций, непосредственно связанных с информационной моделью сложившейся обстановки. Такую деятельность во многих работах, например, [2, 3, 4], обычно называют информационной или деятельностью оператора с информационной моделью. Для такой деятельности характерна прямая зависимость «качество ИМ – эффективность деятельности оператора».

Результаты анализа работ в предметной области «информационное обеспечение деятельности оператора» [2, 3, 4 и др.] позволяют сформулировать положение, которое можно считать определяющим при проектировании системы информационного обеспечения (СИО). Информационные модели и их фрагменты должны обеспечивать не только эффективный поиск и восприятие сведений о проблемной ситуации, но и формирование оперативного образа этой ситуации в сознании оператора, т.е. ее концептуальной модели.

Реализацию этого положения на практике можно обеспечить, если при проектировании ИМ в полной мере учесть основные эргономические принципы [2, 3, 5]: принцип адекватности ИМ; принцип структурирования; принцип оптимального объема информации; принцип оптимального кодирования; принцип наглядности; принцип выделения конфликтных ситуаций.

Следует отметить, что принципы адекватности ИМ, структурирования и оптимального объема информации определяют требования к содержанию фрагментов и системы моделей в целом. Содержание ИМ определяется множеством информационных признаков (ИП), содержащихся в ИМ. Таким образом, задача формирования множества информационных признаков, обеспечивающих решение всех частных задач, стоящих перед оператором, является актуальной.

Основная часть. В интересах систематизации процесса формирования ИП классифицируем их по функциональному признаку, т.е. по их назначению в информационной деятельности оператора. Все ИП разделим на следующие группы [5]:

1. Определяющие ИП ($П^{О}$) характеризуют наиболее важные свойства оцениваемой ситуации или ее элементов.

2. Дополнительные ИП ($П^{Д}$) характеризуют детали свойств оцениваемой ситуации или ее элементов. Использование этих ИП способствует повышению надежности решения частных задач.

3. Вспомогательные ИП ($П^{В}$) характеризуют статичные элементы ИМ, которые служат опорой при поиске и восприятии отображаемой информации. Такие признаки используются практически во всех ИМ.

Анализ возможных методов формирования ИП, имеющих различное функциональное назначение, показывает, что методы формирования $П^{О}$ и $П^{В}$ имеют много общего.

Дополнительные ИП имеют большой вес при принятии решений на основных этапах разрешения КС. Содержание $П^{Д}$ во многом определяет конкретная мыслительная деятельность оператора при решении задач.

Поэтому выделим две частные задачи, которые необходимо решить для формирования ИП:

1. Формирование определяющих и вспомогательных ИП – $П^{О}$ и $П^{В}$;

2. Формирование дополнительных ИП – $П^{Д}$

Тогда множество ИП, используемых оператором для решения i-й задачи, составит

$$П_i = (П_i^{О}, П_i^{Д}, П_i^{В}).$$

Определяющие ИП это такие, которые характеризуют основные, наиболее существенные свойства ситуации. По этим признакам судят о принадлежности ситуации к определенному классу.

Тогда рассматриваемую задачу можно сформулировать так: для формирования определяющих ИП выбрать такие, которые необходимы и достаточны для эффективного решения i-й задачи. Формально в упрощенном варианте эту задачу можно представить так:

$$\Pi_i^O = \text{opt} \bigcup_{j \in \Omega_i} \hat{} \ , \ \pi_j^O \in \Pi^O, (i = 1, 2, \dots , m; j = 1, 2, \dots, ni), \quad (1)$$

где π_j^O – j-й определяющий признак; Ω_i - область признаков, относящихся к i-той задаче. Здесь принцип оптимизации сводится к минимизации количества признаков, относящихся к i-й задаче при выполнении условий: $O \le O_З$, $P \ge P_З$.

Формирование Π_i^O целесообразно выполнять по результатам решения задачи распознавания КС, выбирая ИП описывающие i-й класс КС.

$$\Pi_i^O = \bigcup_j \hat{} \ , \ \pi_{ij}^O \in \Pi^O, \quad (2)$$

где π_{ij}^O – j-й признак, описывающий i-й класс КС; Π^O – множество основных ИП, которые использовались для классификации КС.

